QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 107 (5338) 17 **iyun** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# “Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşıdır”

*Prezident İlham Əliyev Avropa İttifaqı komissarının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*


Səh 2

## Martin Çunqonq: Parlamentlərarası İttifaq Azərbaycanla əməkdaşlıqda maraqlıdır

Azərbaycanda səfərdə olan Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonq iyunun 16-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu ulu öndər Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə güllər qoyub. AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.



Səh. 3

## Ombudsmanların XIV Bakı Beynəlxalq Konfransı keçirilir



İyunun 16-da Bakıda “Dayanıqlı İnkişaf Məqsədlərinin təməl prinsipləri: hüquq bərabərliyi, milli prioritetlər və əməkdaşlıq” mövzusunda Ombudsmanların XIV Bakı Beynəlxalq Konfransı işə başlayıb.AZƏRTAC xəbər verir ki, konfrans ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdış gününün - 15 iyun tarixinin Milli Məclisin qərarı ilə Milli Qurtuluş Günü elan edilməsinin 20 illiyinə ...

Səh. 6

8

**Ziyafət Əsgərov: “Avropa Parlamentinin qətnaməsi ikitərəfli münasibətlərə xələl gətirməyə bilməz”**



8

**Parlamentlərarası İttifaq Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyir**



16

**Nigar Arpadarai: “Bu il Bakıya gələcək xaricilərin sayı 2 dəfə çox olacaq”**



# Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı geniş proqramlar qəbul edilib

*Azərbaycan Prezidenti İlham Əliyev "John Deere" şirkətinin sədri və baş icraçı direktorunu qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də "John Deere" şirkətinin sədri və baş icraçı direktoru Samuel Alleni qəbul edib. AZƏRTAC xəbər verir ki, Azərbaycanın "John Deere" şirkəti ilə artıq 10 ildən çoxdur səmərəli əməkdaşlıq həyata keçirdiyini qeyd edən dövlətimizin başçısı ölkəmizin bu əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu bildirdi.***



Prezident İlham Əliyev Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı geniş proqramların qəbul edildiyini və bu proqramların artıq yaxşı nəticələr verdiyini dedi, bu baxımdan Azərbaycanda kənd təsərrüfatı texnikası, o cümlədən "John Deere" şirkətinin istehsal etdiyi məhsullar üçün böyük bazarın mövcud olduğunu qeyd etdi. Kənd təsərrüfatı ilə bağlı planlarımızın həyata keçirilməsi üçün müasir texnikanın önəmindən danışan dövlətimizin başçısı vurğuladı ki, ölkəmiz bu sahədə məhsuldarlığın və səmərəliliyin artırılması üçün müasir texnologiya və avadanlıqların tətbiqində maraqlıdır. Prezident İlham Əliyev Azərbaycanın kənd təsərrüfatı sahəsində uğurlar qazandığını qeyd edərək bu sahədə ixracın artıq genişləndiyini vurğuladı, ölkəmizin ümumi daxili məhsulunda kənd təsərrüfatının payının bundan sonra da artacağına əmin olduğunu bildirdi.

Azərbaycana ilk dəfədir ki, səfər etdiyini deyən "John Deere" şirkətinin sədri və baş icraçı direktoru Samuel Allen bu səfərlərin davamlı olacağına əminliyini ifadə etdi. Samuel Allen artıq ölkəmizdə mühüm kənd təsərrüfatı texnikası istifadəçiləri ilə görüşdüyünü məmnunluqla qeyd edərək bildirdi ki, Azərbaycanda kənd təsərrüfatı sahəsində həyata keçirilən hazırkı və gələcək layihələrə göstərilən maraq çox yüksək səviyyədədir. Görüşdə Azərbaycanın "John Deere" şirkəti ilə əməkdaşlığının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev Parlamentlərarası İttifaqın baş katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqu qəbul edib. AZƏRTAC xəbər verir ki, Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonq Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini, Bakının gözəl şəhər olduğunu bildirdi. Qonaq qeyd etdi ki, ölkəmiz haqqında nə qədər çox məlumat əldə edirsə, Azərbaycana marağı bir o qədər də artır. Martin Çunqonq ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin dinc şəraitdə yaşamasının önəmini qeyd edərək, Parlamentlərarası İttifaqın Azərbaycan ilə əməkdaşlıqda xüsusilə maraqlı olduğunu bildirdi. Ölkəmiz haqqında həmişə yaxşı məlumatlar eşitdiyini deyən Martin Çunqonq bu həqiqətlərin bütün dünyaya çatdırılmasının vacibliyini qeyd etdi.

Azərbaycan haqqında dolğun və obyektiv məlumatların yayılmasında maraqlı olduğumuzu deyən Prezident İlham Əliyev müxtəlif ölkələrdən qonaqların, o cümlədən parlament üzvlərinin Azərbaycana səfərə gələrək inkişafı öz gözləri ilə görməsinin əhəmiyyətini vurğuladı. Parlamentlərarası əlaqələrin önəminə toxunan dövlətimizin başçısı Azərbaycanın MDB, Avropa Şurası, ATƏT və digər beynəlxalq təşkilatların parlament assambleyaları ilə əməkdaşlıq etdiyini dedi və bildirdi ki, bu çoxşaxəli əməkdaşlıq uğurlu nəticələr verir. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanda təşkil olunan yüksək səviyyəli beynəlxalq tədbirlər, səfərlər xalqlar və millətlər arasında dialoq, tolerantlıq və qarşılıqlı anlaşma mühitinin yaradılmasında xüsusi rol oynayır. Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqun ölkəmizə səfərinin əməkdaşlığımıza dair məsələlər ətrafında fikir mübadiləsi aparılması üçün yaxşı fürsət yaratdığını deyən dövlətimizin başçısı bu səfərin əlaqələrimizin genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

# Azərbaycan Prezidenti İlham Əliyev görkəmli alim, akademik Rəfiqə Əliyevanın qırx mərasimində iştirak edib





***İyunun 15-də Heydər Məscidində tanınmış kimyaçı alim, akademik, kimya elmləri doktoru, professor, Əməkdar Elm Xadimi Rəfiqə Əliyevanın qırx mərasimi olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Mərasimdə mərhumun ruhuna "Quran" ayəsi oxundu.***

Akademik Rəfiqə Əliyeva ölkəmizdə kimya elminin inkişafına mühüm töhfələr verib. Onun rəhbərliyi altında çox önəmli elmi tədqiqat işləri aparılıb. Bir sıra elmi şuraların və cəmiyyətlərin üzvü olan Rəfiqə Əliyeva 450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifidir. Alimin rəhbərliyi altında 20-dən çox fəlsəfə və elmlər doktoru yetişib. Ömrünün böyük hissəsini Bakı Dövlət Universiteti ilə bağlayaraq pedaqoji fəaliyyətlə məşğul olan Rəfiqə Əliyeva ölkəmizdə analitik kimya sahəsində yeganə qadın akademikdir.

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 622-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 626-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev "Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının 2017-ci il 31 may tarixli 677-VQ nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 623-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycanın səhiyyə işçilərinə fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Fidan Qasımovanın "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir ki, Azərbaycan musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Fidan Əkrəm qızı Qasımova "İstiqlal" ordeni ilə təltif edilsin.

## Martin Çunqonq: Parlamentlərarası İttifaq Azərbaycanla əməkdaşlıqda maraqlıdır



Azərbaycanda səfərdə olan Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonq iyunun 16-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu ulu öndər Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə güllər qoyub. AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaq ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, məzarları üstünə güllər qoyub. Martin Çunqonq Bakının ən hündür nöqtəsindən şəhərin mənzərəsini seyr edib.

Baş katib jurnalistlərə müsahibəsində deyib: "İlk dəfədir ki, Azərbaycandayam. Məqsəd Parlamentlərarası İttifaq və üzvləri arasında münasibətləri inkişaf etdirməkdir. Səfər çərçivəsində keçirdiyimiz görüşlərdə bir sıra məsələləri müzakirə etdik. Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi apardıq. Eyni zamanda, terrorizmlə mübarizə yollarını da müzakirə etdik". Martin Çunqonq Parlamentlərarası İttifaqın Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb.

# "Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşıdır"

## *Prezident İlham Əliyev Avropa İttifaqı komissarının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Avropa İttifaqının genişlənmə danışıqları və Avropa Qonşuluq Siyasəti üzrə komissarı Yohannes Hanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Brüsselə son səfərini məmnunluqla xatırlayaraq səfər zamanı səmərəli müzakirələrin və danışıqların aparıldığını dedi, bu danışıqların əməkdaşlığımızın daha da genişləndirilməsi ilə bağlı birgə yanaşmanı bir daha nümayiş etdirdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlığa dair yeni saziş üzrə danışıqların səfərin növbəti günü başlamasının rəmzi xarakter daşıdığını vurğuladı və bu danışıqların uğurla davam etdirildiyini dedi. Ölkəmizin Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu bildirən dövlətimizin başçısı əlaqələrimizin strateji xarakter daşıdığını və uzun illərə hesablandığını qeyd etdi, əməkdaşlığımızın sabitlik və təhlükəsizlik şəraitində davam etdirildiyini diqqətə çatdırdı. Ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığının gündəliyində siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji və digər sahələri əhatə edən geniş məsələlərin durduğunu qeyd edən Prezident İlham Əliyev Azərbaycan tərəfinin əlaqələrimizin daha da genişləndirilməsi üçün səylər göstərməyə hazır olduğunu bildirdi.

Avropa İttifaqının genişlənmə danışıqları və Avropa Qonşuluq Siyasəti üzrə komissarı Yohannes Han Azərbaycan Prezidentini Qurtuluş Günü münasibətilə təbrik etdi. Prezident İlham Əliyevin Brüsselə son səfərinə toxunan qonaq səfərin uğurlu keçdiyini, məhz bu səfərdən sonra Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlıq sazişi üzrə danışıqların başlandığını qeyd etdi və danışıqların konstruktiv ruhda davam etdirildiyini bildirdi. Avropa İttifaqı ilə Azərbaycanın ikitərəfli münasibətlərə təsir göstərə biləcək məsələlərin həlli yollarını müəyyənləşdirməsinin vacibliyini vurğulayan Yohannes Han əlaqələrimizin gələcəkdə daha da inkişaf etdirilməsi üçün qarşılıqlı marağın olduğunu qeyd etdi. O bildirdi ki, Avropa İttifaqı qonşu ölkələrdə sabitliyin mövcud olmasında maraqlıdır və Azərbaycan regionda və daha geniş məkanda bu baxımdan mühüm rol oynayır.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında viza rejiminin sadələşdirilməsi, həmçinin enerji və nəqliyyat sahələrində əməkdaşlığın hazırkı vəziyyəti ilə bağlı məsələlər müzakirə olundu, bu sahələrdə yaxşı perspektivlərin olduğu vurğulandı. Görüşdə, həmçinin regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# "Azərbaycan ilə Kolumbiya arasında siyasi əlaqələr yaxşı səviyyədədir"

## *Azərbaycan Prezidenti İlham Əliyev Kolumbiyanın xarici işlər nazirini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Kolumbiya Respublikasının xarici işlər naziri xanım Mariya Anxela Olqini qəbul edib. AZƏRTAC xəbər verir ki, xarici işlər naziri Mariya Anxela Olqin Azərbaycanda artıq Kolumbiya səfirliyinin açıldığını və burada Sakit Okean Alyansına daxil olan ölkələrdən Peru və Meksika ilə birlikdə fəaliyyət göstərdiklərini məmnunluqla qeyd etdi.***

Azərbaycanın böyük imkanlara malik ölkə olduğunu deyən Mariya Anxela Olqin əməkdaşlığımızın genişləndirilməsi üçün birgə işləməyə hazır olduqlarını bildirdi. Qonaq Azərbaycan ilə Kolumbiya arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu, digər sahələrdə də əlaqələrimizin inkişaf etdirilməsinə maraq göstərdiklərini vurğuladı. Ölkəsində gedən proseslər barədə dövlətimizin başçısına məlumat verən Mariya Anxela Olqin Kolumbiyada uzun müddətdir davam edən münaqişə nəticəsində sülh sazişinin əldə edilməsindən sonra quruculuq işlərinə başlanıldığını, kənd təsərrüfatının inkişafı ilə bağlı bir sıra layihələr həyata keçirildiyini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanda da regionların və kənd təsərrüfatının inkişafının əsas prioritetlərdən biri olduğunu vurğuladı, bu istiqamətdə aparılan islahatlardan danışdı.

Görüşdə Azərbaycan ilə Kolumbiya arasında əməkdaşlığın iqtisadiyyat, kənd təsərrüfatı, ticarət, turizm və digər sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların mövcud olduğu vurğulandı, hər iki ölkənin bu əlaqələrin genişləndirilməsinə maraq göstərdiyi qeyd edildi.



# Mədəniyyətin inkişafı dövlətin daima diqqət mərkəzindədir

## *Prezident İlham Əliyev görkəmli opera müğənniləri Fidan və Xuraman Qasımovaları qəbul edib*

İyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli opera müğənniləri, Xalq artistləri Fidan və Xuraman Qasımovaları qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xüsusi xidmətlərinə görə Fidan Qasımovanı "İstiqlal" ordeni ilə təltif edib. Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

- Hörmətli Fidan xanım.

Sizi qarşıdan gələn yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Siz uzun illər öz sənətinizlə Azərbaycan xalqını sevindirmisiniz. Azərbaycan xalqı sizin fəaliyyətinizə yüksək qiymət verir, sizi sevir. Siz xalqımızı müxtəlif ölkələrin səhnələrində ləyaqətlə təmsil etmisiniz və bu gün də təmsil edirsiniz. Sizin fəaliyyətiniz həm sovet dövründə, həm də müstəqillik dövründə yüksək qiymətləndirilmişdir. Siz hələ sovet dövründə Azərbaycan Respublikasının Xalq Artisti, SSRİ Xalq Artisti adlarına layiq görülmüsünüz. Bu, sizin istedadınıza verilən yüksək qiymət idi.

Siz yaxşı bilirsiniz ki, ulu öndər Heydər Əliyev sizə və Xuraman xanıma həmişə böyük diqqət və qayğı ilə yanaşırdı, sizi çox sevirdi, sizin fəaliyyətinizlə maraqlanırdı. Mən də öz növbəmdə çalışıram ki, sizə lazımi qayğı və diqqəti göstərim. Azərbaycan dövləti, müstəqil Azərbaycan sizin fəaliyyətinizi çox yüksək qiymətləndirib. 1997-ci ildə Ulu Öndərin Sərəncamı ilə siz "Şöhrət" ordeni ilə təltif olunmusunuz. 2010-cu ildə isə mənim Sərəncamımla "Şərəf" ordeni ilə təltif edilmisiniz. Siz bir çox beynəlxalq mükafatlara da layiq görülmüsünüz. Bu gün mənim Sərəncamımla Siz Azərbaycan dövlətinin ən yüksək ordenlərindən biri olan "İstiqlal" ordeni ilə təltif olunursunuz. Bu, yüksək mükafatdır, siz buna layiqsiniz. Sizə yeni uğurlar arzulayıram.







X X X

Dövlətimizin başçısı "İstiqlal" ordenini Fidan Qasımovaya təqdim etdi.

X X X

Prezident İlham Əliyevə minnətdarlığını bildirən Xalq Artisti Fidan Qasımova dedi:

- Çox sağ olun, cənab Prezident, Sizə minnətdaram.

Cənab Prezident, heç vaxt yadımdan çıxmır, birinci ordenlə məni Sizin atanız, Ulu Öndərimiz, unudulmaz Heydər Əliyev təltif etmişdi. Bu gün isə mənim sənətimi Siz yüksək qiymətləndirirsiniz. Məni belə yüksək mükafata layiq gördüyünüz üçün Sizə böyük minnətdarlığımı bildirmək istəyirəm. Sizin bütün ailənizə təşəkkürümü bildirmək istəyirəm. Bizim Birinci vitse-prezidentimiz Mehriban xanıma minnətdarlığımı bildirirəm. O da bizə qarşı həmişə çox diqqətli olub.

Biz Xuraman xanımla xaricdən - Florensiyadan təzə gəlmişik. Orada italiyalı tələbələrə ustad dərsləri keçirdik. Onlar bizim ölkəmizlə bağlı çox şey eşidiblər və Azərbaycanı yaxşı tanıyırlar. Azərbaycanı Avropada, bütün dünyada tanıyırlar. Bu, Sizin sayənizdə olub.

Biz də öz sadə sənətimizlə Azərbaycanı tanıdırırıq. Amma Siz bu istiqamətdə daha böyük işlər görürsünüz. Buna görə mən Sizə bir daha minnətdaram. Xuraman da mənim sözlərimə qatıla bilər. Çünki o, şahid idi ki, İtaliyada rektor və prorektor Azərbaycan haqqında necə xoş sözlər söyləyirdilər. Bir-iki ay bundan əvvəl vokal müəllimi Leonardo Belisi Azərbaycana gəlmişdi. O, bizim Bakı şəhərini gördü, onun gözəlliyinə valeh oldu. O, Sizin haqqınızda burada eşitdiklərini İtaliyada, Florensiyada bizə həvəslə danışırdı. Bu, bizi çox sevindirirdi. Bu uğurlara görə Sizə bir daha səmimi qəlbdən minnətdarlığımı bildirirəm.

X X X

Sonda xatirə şəkli çəkdirildi.

# Ombudsmanların XIV Bakı Beynəlxalq Konfransı keçirilir

## *Əli Həsənov: "Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, vətəndaş cəmiyyətinin inkişafı sahələrində böyük uğurlar qazanılıb"*



***İyunun 16-da Bakıda "Dayanıqlı İnkişaf Məqsədlərinin təməl prinsipləri: hüquq bərabərliyi, milli prioritetlər və əməkdaşlıq" mövzusunda Ombudsmanların XIV Bakı Beynəlxalq Konfransı işə başlayıb.***

AZƏRTAC xəbər verir ki, konfrans ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdış gününün - 15 iyun tarixinin Milli Məclisin qərarı ilə Milli Qurtuluş Günü elan edilməsinin 20 illiyinə və Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə 18 iyun tarixinin İnsan Hüquqları Günü kimi təsis olunmasının 10 illiyinə həsr edilib.

Konfransda dövlət və hökumət rəsmiləri, xarici ölkələrin ombudsmanları, insan hüquqları sahəsində beynəlxalq ekspertlər, Milli Məclisin deputatları, ölkəmizdə akkreditə olunan diplomatik korpusun nümayəndələri, QHT-lərin və KİV-lərin təmsilçiləri iştirak edirlər.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Elmira Süleymanova ölkəmizin 25 ildən artıq müddətdə davam edən Ermənistanın hərbi təcavüzü nəticəsində ərazilərimizin 20 faizinin işğal altında olmasına baxmayaraq, sürətlə inkişaf edərək dünya dövlətləri arasında özünə layiqli yer tutduğunu vurğulayıb. Son illər Azərbaycanda bütün sahələrdə həyata keçirilən əsaslı islahatlardan danışan ombudsman dövlətimizin başçısının Sərəncamı ilə təsdiq olunan Strateji Yol Xəritələrinin ölkəmizin yeni dövrün tələbləri əsasında daha sürətli inkişafını təmin edəcəyinə əminliyini diqqətə çatdırıb.

E.Süleymanova Azərbaycanın 80 milli və etnik qrupu təmsil edən tolerantlıq modelinin bütün dünyada təqdirlə qarşılandığını bildirərək deyib ki, beynəlxalq aləmdə, həmçinin idman ölkəsi kimi tanınan Azərbaycan ötən ay IV İslam Həmrəyliyi Oyunlarına yüksək səviyyədə ev sahibliyi etməklə dünyada tolerantlığın və multikulturalizmin inkişafına növbəti töhfəsini verdi. Çoxsaylı regional və beynəlxalq konvensiya və proqramlara qoşulan Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması üçün zəruri normativ hüquqi baza formalaşdırılıb və bu istiqamətdə çox vacib tədbirlər həyata keçirilir, beynəlxalq əməkdaşlıq diqqət mərkəzində saxlanılır.

Ölkəmizdə ombudsman təsisatının 15 illik uğurlu fəaliyyətindən danışan E.Süleymanova insan hüquq və azadlıqlarının qorunması məqsədilə həyata keçirilən müxtəlif tədbirlərdən, o cümlədən geniş maarifləndirmə işindən danışıb.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov konfransda çıxış edib. Professor Əli Həsənov bildirib ki, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün bu qlobal təşəbbüsə qoşulan dövlətlərin zəruri resurslara malik olması mühüm şərtdir. Müstəqillik illərində Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlər, hazırkı inkişaf səviyyəsi göstərir ki, ölkəmiz qarşıya qoyulan hədəflərə çatmaq üçün güclü potensiala malikdir.

Prezidentin köməkçisi qeyd edib ki, bu gün Azərbaycan güclü iqtisadiyyata, dayanıqlı siyasi-hüquqi və sosial-müdafiə sisteminə, təhlükəsiz və sabit ictimai-siyasi mühitə, yenilənmiş infrastruktura malik, beynəlxalq təşkilatlara inteqrasiya olunmuş bir dövlətdir. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev ölkənin sağlam qüvvələrini, bacarıqlı, vətənpərvər və intellektual insanlarını ətrafına toplayaraq böyük vəzifələrin öhdəsindən uğurla gəldi və Azərbaycanın yüksəlişinin əsaslarını yaratdı. Onun rəhbərliyi və iradəsi ilə demokratik, hüquqi dövlətə və azad cəmiyyətə xas olan institutlar və təsisatlar, bazar münasibətlərinə əsaslanan iqtisadiyyat, ədalətli sosial siyasət formalaşdırıldı, mədəniyyət, təhsil, səhiyyə, idman və ekoloji problemlərə diqqət artırıldı.

Dövlətimizin başçısı İlham Əliyevin Prezident kimi fəaliyyəti dövrünə konseptual baxımdan qiymət verən Əli Həsənov bu dövrü "fasiləsiz islahatlar və modernləşmə dövrü" kimi xarakterizə edib. Əli Həsənov bildirib ki, bu dövr sosialist təsərrüfat sistemindən yeni sistemə keçidin başa çatması ilə də tarixə düşüb.

Əli Həsənov vurğulayıb ki, bu dövr Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşdırılması baxımından xüsusilə əlamətdardır. İlk növbədə, yoxsulluğun 49 faizdən 5 faizə, işsizliyin 50 faizdən 5 faizə endirilməsi qeyd olunmalıdır. Bir milyondan artıq qaçqın və məcburi köçkünün sosial problemlərinin həlli, infrastrukturun yenilənməsi, sosial müdafiə və sosial xidmətlərin səviyyəsinin və əlçatanlığının yüksəldilməsi, ekoloji problemlərə diqqətin artırılması və digər göstəricilər Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində böyük nailiyyət hesab edilməlidir.

Prezidentin köməkçisi Əli Həsənov, həmçinin bildirib ki, Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, vətəndaş cəmiyyətinin inkişafı sahələrində böyük uğurlar qazanılıb. Ölkədə birləşmək, söz, fikir və mətbuat azadlıqları, habelə digər azadlıqlar təmin olunur, insan hüquqları sahəsində beynəlxalq standartlar gözlənilir. Ötən illər ərzində Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirib, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxıb və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə edib. İndi Azərbaycanda 3 mindən çox QHT, yüzlərlə KİV, 55 siyasi partiya, müxtəlif dinlərə mənsub icmalar azad fəaliyyət göstərirlər. İnternetdən istifadə edənlərin xüsusi çəkisi 80 faizdən çoxdur. Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi ümumdövlət vəzifəsi hesab olunaraq, Davamlı İnkişaf Məqsədlərinin, insan hüquqlarının müdafiəsi və demokratiyanın, qanunun aliliyi sahəsində qabaqcıl beynəlxalq prioritetlər nəzərə alınaraq, insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət planları qəbul olunur və icra edilir. 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya edilən dəyişikliklər vətəndaşların hüquqlarının daha da genişlənməsi və etibarlı qorunması üçün əlavə təminatların yaradılmasına xidmət edib.

Çıxışının sonunda Əli Həsənov bəyan edib ki, Azərbaycanda hazırlanan inkişaf konsepsiya və strategiyaları, proqram və layihələr bir qayda olaraq, BMT-nin Davamlı İnkişaf Məqsədləri ilə uyğunlaşdırılır. Bu da onu göstərir ki, Azərbaycan dövləti öz siyasətini qlobal çağırışlar və təmayüllər nəzərə alınmaqla qurur.

Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini Bahar Muradova ölkəmizdə ombudsman təsisatının uğurlu fəaliyyətini qeyd edərək, bu sahədə xeyli iş görüldüyünü diqqətə çatdırıb. Bildirib ki, Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin təməl prinsipləri artıq formalaşdırılıb və bunun əsasında qəbul olunan qərarlar bu nəticələrə nail olunmasında öz mühüm töhfəsini verir. Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında hazırda regionda və dünyada baş verən münaqişələrin ciddi əngəl törətdiyini qeyd edən Bahar Muradova bildirib ki, beynəlxalq hüququn prinsiplərinin aşkar şəkildə pozulması faktı ilə qarşılaşmasına baxmayaraq Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə sadiq qalaraq bu sahədə vacib addımlar atır.

Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması, insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində beynəlxalq və ikitərəfli əməkdaşlığın genişləndirilməsinin, təcrübə mübadiləsinin aparılmasının önəmini diqqətə çatdıran Milli Məclis sədrinin müavini bu baxımdan konfransın əhəmiyyətini yüksək qiymətləndirib.

**Ardı Səh. 7**

# Ombudsmanların XIV Bakı Beynəlxalq Konfransı keçirilir

## *Əli Həsənov: “Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, vətəndaş cəmiyyətinin inkişafı sahələrində böyük uğurlar qazanılıb”*

**Əvvəli-Səh-6**

BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi Qulam İshaqzai çıxışında Dayanıqlı İnkişaf Məqsədləri və insan hüquqlarının qorunmasını təmin edən institutlar arasında əlaqələndirmə işinin təşkili məsələlərindən danışıb. Bildirib ki, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri bütün üzv dövlətləri insan hüquq və azadlıqlarının təmin olunmasına çağırır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının üzvü Hicran Hüseynova dayanıqlı inkişafın Azərbaycanda prioritet istiqamətlərdən olduğunu vurğulayaraq, ölkəmizdə gender bərabərliyi, ailə, qadın və uşaq məsələləri üzrə həyata keçirilən tədbirlərdən danışıb. Bildirib ki, müstəqilliyinin ilk illərində bütün sahələrdə tənəzzül, torpaqlarının işğalı ilə qarşılaşmasına baxmayaraq, Azərbaycan Dayanıqlı İnkişaf Məqsədləri üzrə əsas hədəflərə artıq nail olub. Bu məqsədlərə nail olunması istiqamətində digər ölkələrdən fərqli olaraq, Azərbaycanda mühüm qanunvericilik bazasının formalaşdırıldığını diqqətə çatdıran H.Hüseynova deyib ki, ölkəmiz bu sahədə mühüm beynəlxalq konvensiyalara qoşulub.

Diqqətə çatdırılıb ki, Azərbaycanda əhalinin yarıdan çoxunu təşkil edən qadınların cəmiyyətdə fəallığının artırılmasına, xüsusən qadın sahibkarların dəstəklənməsi və onların fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına xüsusi diqqət yetirilir. Bu sahədə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində qadın sahibkarların sayı qısa müddətdə 17 faizdən 24 faizə çatıb.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev beynəlxalq qurumların təmsilçilərinin də qatıldıqları konfransın təcrübə mübadiləsinin aparılması baxımından önəmini vurğulayıb. Ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində reallaşdırılan dövlət siyasəti çərçivəsində turizmin tərəqqisinə də xüsusi diqqət yetirildiyini qeyd edən nazir Prezident İlham Əliyevin Sərəncamına əsasən, Turizm Şurasının yaradıldığını xatırladıb. Bundan başqa, Azərbaycanda ətraf mühitin mühafizəsi istiqamətində genişmiqyaslı tədbirlərin görüldüyünü vurğulayan Ə.Qarayev bu sahədə IDEA İctimai Birliyinin həyata keçirdiyi layihələrin önəmini qeyd edib.

Diqqətə çatdırılıb ki, Dayanıqlı İnkişaf Məqsədlərinin əsas istiqamətlərindən biri də mədəni audentiklikdir. Buna görə də Azərbaycan xalqının çoxəsrlik adət-ənənələrinin, mədəni-mənəvi sərvətinin qorunması və onun dünyada təbliği mühüm əhəmiyyət daşıyır. Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti nəticəsində tarixi-mədəni irsimizin müxtəlif nümunələri BMT-nin bir sıra nominasiyaları üzrə qəbul olunub.

Ermənistanın işğal edilmiş Azərbaycan torpaqlarında tarixi-mədəni irsimizi məhv etdiyini diqqətə çatdıran nazir bildirib ki, bundan fərqli olaraq ölkəmizdə etnik və dini azlıqlara dair mədəniyyət abidələri dövlət səviyyəsində qorunur. Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinin təmin olunması sahəsində beynəlxalq əməkdaşlığa mühüm töhfə verdiyini qeyd edən Ə.Qarayev bu baxımdan Prezident İlham Əliyevin təşəbbüsü ilə başladılan “Bakı prosesi”nin önəmini xüsusi vurğulayıb.



Açılışdan sonra konfrans işini plenar iclasla davam etdirib. Moderatoru Elmira Süleymanova olan iclasda ombudsman “Azərbaycanda hüquq bərabərliyinin təmin olunması Dayanıqlı İnkişaf Məqsədləri kontekstində” mövzusunda məruzə ilə çıxış edib.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva “Dayanıqlı inkişafda beynəlxalq əməkdaşlığın rolu və milli-mədəni dəyərlər” mövzusunda çıxışında bildirib ki, məlum olduğu kimi, hazırda dünyada bir çox mürəkkəb siyasi hadisələr, dini, etnik və ya digər zəmində münaqişələr baş verir, terrorizm dünyanın qarşılaşdığı ən böyük hədələrdən birinə çevrilib. Eyni zamanda, bəşəriyyət müxtəlif iqtisadi, sosial və ekoloji problemlərlə üzləşir, qloballaşma dövründə dünya xalqlarının mənsub olduğu spesifik milli-mənəvi xüsusiyyətlər və mədəni dəyərlər yox olmaq təhlükəsi altında qalır. Belə bir dövrdə dayanıqlı inkişafın təmin edilməsi məsələsinin gündəmə gətirilməsi, bu yöndə vacib prinsiplərin araşdırılmasına dair fikir mübadiləsinin aparılması zəruridir, çünki dayanıqlı inkişaf iqtisadi, sosial və ekoloji aspektləri əhatə etməklə hazırkı zamanın tələblərini ödəyən, lakin gələcək nəsillərin də tələbatlarını ödəməyi təhlükə altına qoymayan və bu zaman digər ölkələrin mili suverenitetinə təhlükə yaratmayan inkişafı nəzərdə tutur.

UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının baş katibi, xüsusi tapşırıqlar üzrə səfir Elnur Sultanov “Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində Azərbaycan Respublikasının UNESCO ilə əməkdaşlığının əsas istiqamətləri” mövzusunda çıxışında qeyd edib ki, Bakıda ombudsmanların 14-cü beynəlxalq konfransının keçirilməsi yalnız ölkə daxilində deyil, beynəlxalq miqyasda aparılan uğurlu işlərdən xəbər verir. Sevindirici haldır ki, bu cür tədbirlərin keçirilməsi artıq ənənə halını alıb. Azərbaycanda reallaşdırılan layihələrin icrası ilə bağlı Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində işlər uğurla davam etdirilir. Eyni zamanda, ölkəmizdə gender bərabərliyi ilə bağlı layihələrin həyata keçirilməsi üçün UNESCO üzrə Azərbaycan Milli Komissiyası vasitəsilə UNESCO-nun İştirak Proqramı çərçivəsində təşkilat tərəfindən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə maliyyə dəstəyi ayrılıb.

Sonra Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanov “Azərbaycanın dayanıqlı inkişaf modeli milli identiklik nöqteyi-nəzərindən” mövzusunda məruzə ilə çıxış edib. O bildirib ki, cəmiyyət tərəfindən inteqrasiyaya yönələn meyilin dərk edilməsi sosial sabitlik və rifah yaradır, bununla da inkişafın dayanıqlı olması təmin edilir. Bu səbəbdən siyasi və elmi diskurslarda ən əhəmiyyətli tezislərdən biri də milli cəmiyyətlərin inkişafının multikulturalizm bayrağı altında baş verəcəyi haqqında tezisdir. Bu tezis o dərəcədə vacib və imperativdir ki, hətta qlobal inteqrasiya fonunda milli dövlətlərin milli iqtisadiyyatlarının müdafiəsi və öz qüvvələri hesabına ekoloji təhlükəsizliyin təmin edilməsi üzrə mövqelərini itirmələrinə, eləcə də enerji təhlükəsizliyi, daxili və xarici siyasət məsələlərinin mürəkkəbləşməsinə baxmayaraq baş verəcək.

Diqqətə çatdırılıb ki, bu gün dayanıqlı, multikultural inkişafın parlaq nümunəsi müasir Azərbaycandır. Azərbaycan rəhbərliyinin müasir multikultural cəmiyyətin formalaşdırılması ilə bağlı iradəsinə söykənən siyasi qərarlar və Azərbaycan xalqının əsrlərin dərinliklərinə gedib çıxan tolerantlıq ənənələri elə bir durum yaradıb ki, həmin durumda multikulturalizmin alternativi yoxdur, çünki Prezident İlham Əliyevin sözləri ilə desək, alternativ ksenofobiyadır, ayrı-seçkilikdir, irqçilikdir, islamofobiyadır, antisemitizmdir. Azərbaycanın multikultural modeli çərçivəsində mədəni müxtəlifliyi dəstəkləyən dövlət qərarları bu halda mədəni fraqmentləşməyə imkan vermir və ictimai inteqrasiyanın universal dəyərlərinə zidd deyil. Kompromisə nail olunur, çünki tərəflərin maraqları bir-birinə zidd deyil və bu, sıfır nəticəli oyun yox, çoxtərəfli qarşılıqlı fəaliyyətin və əməkdaşlığın, kooperasiyanın və ümumdövlət maraqlarının hamıya fayda verdiyi koalisiyalı bir oyundur.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı “Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədləri və dini tolerantlıq” mövzusunda çıxış edərək dayanıqlı inkişafı zəruri edən amillərin mövcud olduğunu vurğulayıb. Komitə sədri deyib ki, dünyada baş verən soyuq müharibələr yeni başlanğıc mərhələnin əsasını qoydu. Planetimiz çox ciddi problemlərlə qarşı-qarşıyadır, Birləşmiş Millətlər Təşkilatı, UNESCO və digər beynəlxalq təşkilatlar bu problemlərin həlli üzərində çalışırlar. Həmin problemlərdən ən başlıcası odur ki, müharibə təhlükəsi bu gün də dünyada qalmaqdadır. Eyni zamanda, müasir dünyada ən ciddi problemlərdən biri terrorizm və onun törətdiyi fəsadlardır, həmçinin ekologiya ilə bağlı olaraq yaranan ziddiyyətlərdir. Dünyanın əsas çatışmazlıqları sırasında sosial bərabərsizlik də mövcuddur. Bütün bu məsələlərin həlli istiqamətində xeyli işlər görülür.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İlqar Rəhimov “Ahıl və əlilliyi olan insanların potensialı və Dayanıqlı İnkişaf Məqsədləri” mövzusunda çıxışında da diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Konstitusiyasına əsasən vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması və sosial müdafiəsinin təşkili dövlətin qarşıya qoyduğu başlıca vəzifədir. Sosial müdafiə sisteminin təkmilləşdirilməsi, milli qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, ahıl şəxslərin maraqlarına maksimum cavab verən sosial sistemin yaradılması istiqamətində xeyli işlər görülüb və bu işlər gələcəkdə də davam ediləcək.

Konfrans sessiyalarla davam edib.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyevanın moderatorluğu ilə keçən “Qloballaşan dünyada bərabərlik və inkişaf hüququnun təmin olunması” adlı sessiyada Naxçıvan Muxtar Respublikasının insan hüquqları üzrə müvəkkili Ülkər Bayramova, Türkiyənin baş ombudsmanı Şərəf Malkoç, Rusiya Federasiyası Tatarıstan Respublikasının insan hüquqları üzrə müvəkkili Sariya Saburskaya, Rusiya Federasiyası Kaluqa vilayətinin insan hüquqları üzrə müvəkkili Yuriy Zelnikov, Azərbaycan Milli Məclisinin deputatı, rus icmasının rəhbəri Mixail Zabelin, Rusiya Federasiyası Dağıstan Respublikasının insan hüquqları üzrə müvəkkili Ummupazil Omarova və Rusiya Federasiyası Başqırdıstan Respublikasının insan hüquqları üzrə müvəkkili Rim Kayumov çıxış ediblər.

Rusiya Federasiyası Tatarıstan Respublikasının insan hüquqları üzrə müvəkkili Sariya Saburskayanın moderatorluğu ilə keçən “Ayrı-seçkiliyin qarşısının alınmasında beynəlxalq və milli hüquq müdafiə mexanizmləri” adlı sessiyada isə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı Əmir Əliyev, Özbəkistanın Ali Məclisinin İnsan Hüquqları üzrə Müvəkkili Aparatının rəhbəri Səidbək Əzimov və Milli QHT Forumunun prezidenti Rauf Zeyni çıxış ediblər.

Çıxışlarda bildirilib ki, hazırda dünyada bir tərəfdən çox mürəkkəb və qarışıq siyasi proseslər cərəyan edir, digər tərəfdən isə dini və etnik münaqişələr, eləcə də iqtisadi böhranlar davam edir. Belə bir vəziyyətdə insan hüquqlarının təmin olunması məsələsi aktuallıq kəsb edir. Əfsuslar olsun ki, dünyada baş verən siyasi kataklizmlər, münaqişələr, təcavüzlər, insanların əsir və girov götürülməsi, eyni zamanda, öz doğma torpaqlarından didərgin salınması insan hüquqlarının ciddi şəkildə pozulmasına səbəb olur. Digər tərəfdən, insan hüquqlarının təmin edilməsinin ciddi beynəlxalq mexanizmlərinin olmaması və ya səmərəliliyinin aşağı səviyyədə olması hər il on minlərlə insanın ölümünə gətirib çıxarır.

Konfrans işini iyunun 17-də başa çatdıracaq. Yekunda Bakı Bəyannaməsi qəbul olunacaq.

# Ziyafət Əsgərov: "Avropa Parlamentinin qətnaməsi ikitərəfli münasibətlərə xələl gətirməyə bilməz"



Avropa Parlamentində Azərbaycana qarşı belə bir addım atılmasından təəssüf hissi keçirirəm. Qətnamənin mətni ilə tanış olduqdan sonra məndə belə bir təəssürat yarandı ki, bu sənəd yoxlanılıb təsdiqlənməmiş məlumatlar, uydurma faktlar əsasında hazırlanıb.

AZƏRTAC xəbər verir ki, bu fikri APA-nın müxbirinin iyunun 15-də Avropa Parlamentində "Əfqan Muxtarlı və Azərbaycanda mətbuatın vəziyyəti" adlı qətnamənin qəbul edilməsinə dair sualına cavabında Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov deyib.

Parlament sədrinin birinci müavininin sözlərinə görə, adı çəkilən qətnamənin qəbul edilməsi ona dəlalət edir ki, Azərbaycan Respublikasının həyata keçirdiyi müstəqil siyasət Avropada fəaliyyət göstərən antiazərbaycan qüvvələri, xüsusən erməni lobbisini narahat edir. "Bu qüvvələrin təsiri və təzyiqi altında Avropa Parlamenti kimi ciddi qurum tərəfindən belə bir hərəkətə yol verilməsi Azərbaycanda anlaşılmazlıq doğurur. 2016-cı ilin sentyabr ayından Azərbaycanın "Avronest"də fəaliyyətinin bərpa olunduğu və Azərbaycan Milli Məclisi ilə Avropa Parlamenti arasında əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi bir dövrdə bu cür qətnamənin qəbul edilməsi ikitərəfli münasibətlərə xələl gətirməyə bilməz. Bunu da qeyd etməyi lazım bilirəm ki, Azərbaycan Avropa İttifaqının üzvü deyil və onun qarşısında heç bir öhdəlik daşımır. Avropa Parlamentinin qətnaməsi Azərbaycan üçün heç bir əhəmiyyət kəsb etmir. Ümid edirəm ki, Avropa İttifaqında və Avropa Parlamentində olan sağlam qüvvələr Azərbaycana qarşı yönələn bu cür qərəzli və bədxah hərəkətlərin qarşısını alacaqlar", - deyə Ziyafət Əsgərov qeyd edib.

# "Hikmət Hacıyev: Avropa Parlamentinin Əfqan Muxtarlı ilə bağlı qəbul etdiyi uydurma xarakterli sənəd heç bir hüquqi qüvvəyə malik deyil"




Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Avropa Parlamentinin Əfqan Muxtarlı ilə bağlı qəbul etdiyi qərəzli qətnaməyə dair AZƏRTAC-ın müxbirinin sualını cavablandırıb.

**- Avropa Parlamentində Azərbaycan ilə əlaqədar qəbul edilmiş qərəzli qətnamə barədə nə deyərdiniz?**

- 2017-ci il iyunun 15-də Avropa Parlamenti tərəfindən Əfqan Muxtarlı ilə bağlı qətnamə qəbul edilib. Cəmi 20 dəqiqəyə yaxın davam edən müzakirələr nəticəsində qəbul edilmiş bu qərəzli və uydurma xarakterli sənəd heç bir hüquqi qüvvəyə malik deyil və hər hansı hüquqi və digər nəticə doğurmur. Eyni zamanda, qətnamənin qəbul edilməsinin təxirə salınması ilə bağlı keçirilmiş səsvermədə səslər arasındakı fərqin az olması Avropa Parlamentində Azərbaycanla əlaqələrə əhəmiyyət verən kifayət qədər deputatın olduğunu göstərir. Belə ki, sözügedən sənədin təxirə salınması təklifinə 272 deputat dəstək verib və 27 nəfər bitərəf qalıb.



# Parlamentlərarası İttifaq Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyir

İyunun 16-da Baş nazirin müavini Əli Əhmədov Azərbaycanda səfərdə olan Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Əli Əhmədov Parlamentlərarası İttifaqın baş katibinin Azərbaycana səfərinin yüksək qiymətləndirildiyini dedi. Ə.Əhmədov əmin olduğunu vurğuladı ki, bu səfər parlamentlərarası əlaqələrin genişləndirilməsində mühüm rol oynayacaq, Azərbaycan ilə İttifaq arasında əməkdaşlığa töhfə verəcək. Ölkəmizin müstəqilliyinin bərpasının 25 illiyinin bu yaxınlarda qeyd edildiyini deyən Baş nazirin müavini bildirdi ki, keçmiş SSRİ-nin süqutundan sonra yaranan dövlətlər arasında Azərbaycan ən uğurla inkişaf edən ölkədir. "İnanıram ki, Azərbaycana səfəriniz çərçivəsində ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin şahidi olacaqsınız", - deyə Ə.Əhmədov bildirib. Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonq Azərbaycana səfərindən məmnunluğunu ifadə etdi. O, təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin genişləndirilməsinə böyük önəm verdiyini qeyd etdi. "Səfərim çərçivəsində ölkənin hərtərəfli inkişafının şahidi oldum və bu, mənə deməyə əsas verir ki, Azərbaycan bütövlükdə regionun inkişafı üçün lokomotiv rolu oynayır", - deyə M.Çunqonq vurğulayıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Parlamentlərarası İttifaqın baş katibi deyib ki, təmsil etdiyi qurum münaqişənin sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyir. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Cavid Qurbanov: Biz Azərbaycanın tranzit potensialını artırmaq niyyətindəyik

Qazaxıstanın paytaxtında X Astana İqtisadi Forum çərçivəsində IV Beynəlxalq "Yeni İpək yolu " nəqliyyat-loqistika forumu keçirilir.



IV Beynəlxalq Yeni İpək Yolu nəqliyyat-logistika forumunda iştirak edən Azərbaycan Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının baş direktoru Taleh Ziyadov "Şərq-Qərb istiqamətində Yeni İpək Yolu" mövzusuna həsr olunmuş plenar iclasda çıxış ediblər. Onlar öz çıxışlarında bildiriblər ki, Azərbaycan üzərindən yüklərin daşınmasının effektivliyini və rəqabətqabiliyyətliliyini artırmaq üçün yeni razılaşmalar əldə olunub və uyğun qiymətlər müəyyənləşdirilib. IV Beynəlxalq Yeni İpək Yolu nəqliyyat-logistika forumunun yekunu olaraq, "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Assosiasiyasına üzv dövlətlər arasında tranzit yüklər və tariflərin razılaşdırılması ilə bağlı protokollar imzalanıb.

Cavid Qurbanov bildirib ki, Astanada keçirilən tədbirlərdə Azərbaycan üzərindən keçən tranzit yüklərin fomalaşdırılması, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna Transxəzər Nəqliyyat Dəhlizi adını verilməsi, yükdaşımaların Azərbaycan üzərindən daşınmasının daha da asanlaşdırılması, Qazaxıstan və Çin yüklərinin Gürcüstandan keçərək Türkiyəyə daşınması, Polşadan gələn yüklərin Qazaxıstana daşınmasında yeni tariflərin müəyyənləşdirilməsi məsələləri müzakirə olunub. "Yükdaşımalara yeni qiymətlər müəyyənləşdirilib. Bu gün belə nəticəyə gəlinib ki, Qazaxıstanın ixrac potensialı artırılsın, bu ölkədən yüklədin Azərbaycan üzərindən Avropaya çatdırılması üçün qiymətlər müəyyənləşdirilsin. Forumda bizim məqsədimiz Azərbaycandan keçən dəhlizlərin əhəmiyyətini, potensialını tədbir iştirakçılarına çatdıraq, Azərbaycan Prezidenti İlham Əliyevin nəqliyyat sektorunun inkişafına ayırdığı diqqət, bu sahəyə qoyulan investisiyalar barədə məlumat verək və ümumiyyətlə Azərbaycan üzərindən tranziti təbliğ etməkdir. Biz Azərbaycanın tranzit potensialını artırmaq niyyətindəyik. Məqsədimiz Azərbaycanı bir haba çevirməkdir", - deyə C.Qurbanov bildirib.

## Metyu Brayza: Dağlıq Qarabağ münaqişəsinin həlli yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür



Dağlıq Qarabağ münaqişəsinin həlli xalqların öz müqəddaratını etmə hüququ nəzərə alınmaqla, yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür. Trend-in məlumatına görə, bunu ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə sabiq köməkçisi, Birləşmiş Ştatların Azərbaycandakı keçmiş səfiri, ATƏT-in Minsk qrupunun sabiq amerikalı həmsədri Metyu Brayza deyib. M.Brayza qeyd edib ki, münaqişə tərəfləri arasında etimad yoxdur: "Tərəflər bir-birinə inanmırlar. Bu da nizamlanmanın əldə olunmasına maneçilik törədir. Buna nail olmaq üçün çətin kompromisslər tələb olunur". Ekspert bildirib ki, yeganə yol ABŞ və Rusiyanın Aİ-nin iştirakı ilə münaqişə tərəflərinin rəhbərliklərinə problemin həllində siyasi dəstək göstərməlsi ola bilər: "Dağlıq Qarabağ ABŞ və Rusiyanın ümumi mövqeyə malik olduğu və birgə fəaliyyətə hazır olduğu azsaylı məsələlərdən biridir".




# 10 yaşlı “ Kaspi”

Dünən Gənc Tamaşaçılar Teatrında “Kaspi” Təhsil Şirkətinin 10 illik yubiley tədbiri keçirilib. SİA-nın xəbərinə görə, həm yubiley, həm də məzun gecəsinin qeyd olunduğu tədbirdə şirkətin işçi kollektivi, məzunlar və onların valideynləri ilə yanaşı ictimai xadimlər, mədəniyyət nümayəndələri və digər görkəmli şəxslər də iştirak ediblər. Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra şirkətin 10 illik tarixini əks etdirən video-çarx nümayiş etdirilib.

İlk çıxış edən “Kaspi” şirkətin təsisçisi Sona Vəliyeva şirkətin yaranma tarixi, missiyası və gələcək hədəfləri haqqında məlumat verib: “Biz 10 ildə müəyyən işlər görməyə çalışmışıq. Amma bu məqsədlərimizin yalnız bir hissəsidir. Biz qloballaşan dünyada hər birimizin arzuladığı gəncliyi yaratmağa çalışırıq. Biz Ulu Öndərin miras qoyduğu Azərbaycana layiq vətəndaşlar yetişdirmək istəyirik. Bu məqsədlə müəllimlərimiz gecə-gündüz, yorulmaq bilmədən fəaliyyət göstərirlər”.

Çıxışı zamanı məzunları təbrik edən Sona Vəliyeva gənclərin gələcək həyatlarında uğur qazanacaqlarına şübhə etmədiyini deyib: “Gənclərimiz nəinki rəqabət qabiliyyətinə malik olmalı, hətta bir addım öndə olmalıdırlar. Təhsil sahəsində əldə etdiklərimizi öyünmək üçün demirik. Çünki bu tək bizim deyil, bütün Azərbaycan təhsilinin uğurudur”.

Daha sonra “Kaspi” Təhsil Şirkətinin direktoru Elnur Əliyev hesabat xarakterli çıxışı ilə gələn qonaqları məlumatlandırıb. Əsasən, şirkətin 10 il ərzində əldə etdiyi nailiyyətlərin əldə olunma səbəblərinə köklənib və qazanılan bütün uğurlarda iştirak edən hər kəsə öz minnətdarlığını bildirib. O bildirib ki, 11 filialda “Kaspi”nin xarici dil kursları fəaliyyət göstərir: “Hər il minlərlə şagird abiturient bu kursları bitirir. 100-dən çox jurnalist bu kurslardan yararlanıb. “Kaspi” Abituriyent şöbəsinin ilk bəhrələrini görürük. Bizim ali məktəbə qəbul göstəricimiz 92 faizdir, 300 dən çox tələbəmiz 600 baldan çox bal toplayır. Bu il isə bir tələbəmiz 700 bal toplayıb. “Kaspi kids” bölməsində məktəbəqədər hazırlıq kursunda hər il 1000-dən çox uşaq hazırlanır. “Kaspi Qlobal “şöbəsinin açılmasında məqsəd isə gənclərimizin xaricdə təhsilinə dəstək olmaqdır. 6 beynəlxalq təhsil sərgisi keçirmişik, 23 ölkənin universitetləri ilə tərəfdaşlıq müqavilələri bağlanıb”. “Kaspi” liseylərində çox ciddi addımların atıldığını deyən E.Əliyev bildirib ki, liseyin tələbələri beynəlxalq olimpiadalarda medallar qazanırlar: “Məktəblərimizdə biliklə yanaşı uşaqların sosial tərəfləri də inkişaf etdirilir. Liseylərimizin 20 məzunu olmasına baxmayaraq, onlardan artıq 6-sı xaricdə təhsil almaq üçün lazımi bal toplaya bilib. Əminik ki, bütün məzunlarımız istədikləri ali təhsil məktəbinə qəbul ola biləcəklər. Bu ildən beynəlxalq uşaq baxçası fəaliyyətə başlayacaq. Onlar ingilis dilində təhsil alacaqlar”.

Tədbirdə “Kaspi Abituriyent” kurslarında təhsil alaraq 700 bal toplamış tələbə Vahab Cəbrayılov da xüsusi mükafatla təltif olunub, həmçinin o, yenicə təsis olunmuş “Kaspi” təqaüdünü şirkətin təsisçisi Sona Vəliyevadan qəbul edib. Tədbirin davamında “Kaspi” təhsil liseyinin şagirdlərinin ifasında bir çox bədii kompozisiyalar, mahnılar, rəqslər ifa edilib.

# Milli Məclisdə Ombudsmanların XIV Bakı Beynəlxalq Konfransının iştirakçıları ilə görüş keçirilib



***İyunun 16-da Milli Məclis sədrinin müavini, insan hüquqları komitəsinin sədri Bahar Muradova parlamentdə Ombudsmanların XIV Bakı Beynəlxalq Konfransının iştirakçıları ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, görüşdə Türkiyənin baş ombudsmanı, Rusiya Federasiyasının Başqırdıstan, Dağıstan və Tatarıstan respublikalarının, həmçinin Moskva, Kaluqa, Saratov vilayətlərinin, Özbəkistanın və Serbiyanın insan hüquqları üzrə müvəkkilləri, ombudsman aparatlarının rəhbərləri iştirak ediblər.

Qonaqları Milli Məclisin rəhbərliyi adından salamlayan vitse-spiker Azərbaycanın müstəqillik illərində keçdiyi inkişaf yolundan söz açıb. Ölkəmizdə müasir dəyərlərə xüsusi önəm verildiyini bildirən Bahar Muradova bu gün Bakıda öz işinə başlayan “Dayanıqlı İnkişaf Məqsədlərinin təməl prinsipləri: hüquq bərabərliyi, milli prioritetlər və əməkdaşlıq” mövzusunda beynəlxalq konfransın əhəmiyyətini yüksək dəyərləndirib. Bildirib ki, Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin təməl prinsipləri artıq formalaşdırılıb, bu istiqamətdə zəruri qanunvericilik bazası yaradılıb. Bu zəmində qəbul olunan qərarlar müsbət nəticələr verir.

İnsan hüquq və azadlıqlarının təmin edilməsi üçün həm beynəlxalq, həm də ikitərəfli əməkdaşlığın genişləndirilməsinin, ölkələr arasında təcrübə mübadiləsinin aparılmasının vacibliyinə toxunan Milli Məclis sədrinin müavini qeyd edib ki, bu baxımdan Ombudsmanların XIV Bakı Beynəlxalq Konfransı önəmli tribunadır.

Sonra Azərbaycanın insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova çıxış edərək ölkəmizdə ombudsman institutunun Milli Məclislə sıx əməkdaşlıq etdiyini vurğulayıb. Bu barədə çoxşaxəli əlaqələri əks etdirən sanballı kitab hazırlandığını qeyd edən müvəkkil Azərbaycan parlamentinin ombudsman təsisatına dəstəyi barədə ətraflı məlumat verib.



# Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlıq sazişi üzrə danışıqların növbəti raundu müzakirə olunub

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Avropa İttifaqının (Aİ) genişlənmə danışıqları və Avropa Qonşuluq Siyasəti üzrə komissarı Yohannes Hanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlıq sazişi üzrə danışıqlar prosesinin növbəti raunduna dair geniş müzakirələr aparılıb. Saziş layihəsinin bu ilin sonunda keçiriləcək Avropa İttifaqı Şərq Tərəfdaşlığı ölkələrinin Zirvə toplantısına qədər yekunlaşdırılacağına ümidvarlıq ifadə olunub. Saziş layihəsi üzrə danışıqların növbəti mərhələsinin iyul ayında keçiriləcəyi bildirilib.



E.Məmmədyarov saziş layihəsi üzrə danışıqların konstruktiv və intensiv şəkildə aparılmasının müsbət hal olduğunu deyib və danışıqların bu mərhələsində əsasən siyasi və ticarət məsələlərinin müzakirə olunduğunu qeyd edib. O, həmçinin ölkəmizin Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu bildirib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin region üçün əsas təhdid olduğunu deyən nazir Elmar Məmmədyarov münaqişənin həlli üzrə aparılan danışıqlar prosesi haqqında məlumat verib. O əlavə edib ki, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu və Ermənistanın işğala əsaslanan status-kvonu saxlamaq siyasəti münaqişənin həllində irəliləyişə nail olmağa imkan vermir.

Elmar Məmmədyarov Avropa İttifaqının Xarici və Təhlükəsizlik Siyasəti üzrə Qlobal Strategiyasında əks olunduğu kimi, Aİ-nin həlli uzadılmış münaqişələrə münasibətdə dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinə hörmət prinsipi əsasında vahid mövqedən yanaşmasının vacibliyini diqqətə çatdırıb.

Avropa İttifaqının komissarı Yohannes Han 15 İyun - Milli Qurtuluş Günü münasibətilə təbriklərini çatdırıb, Aİ ilə Azərbaycan arasında nəqliyyat, ticarət, uzlaşma və enerji sahələrində praqmatik və praktik əsaslı əməkdaşlığın mövcud olduğunu bildirib. Görüşdə Aİ-Azərbaycan əlaqələrinin inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilib

***Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında Sazişə əsasən iyunun 12-dən etibarən Naxçıvanda iki ölkənin Silahlı Qüvvələrinin birgə əməliyyat taktiki təlimləri başlanıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyunun 15-də - Milli Qurtuluş Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikası Silahlı Qüvvələrinin mexanikləşdirilmiş briqada komandiri, general-mayor Ərcan İlhan birgə əməliyyat taktiki təlimi izləyiblər.***



Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev təlimə hazırlıq barədə Ali Məclisin Sədrinə raport verib.

Əməliyyat taktiki təlimin planı ilə tanış olduqdan sonra bildirilib ki, təlimin keçirilməsində məqsəd Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətləri arasında əməliyyatların birgə icra edilməsində uzlaşmış fəaliyyətə nail olunması, qoşunların idarə edilməsində vahid prosedurlarının işlənib hazırlanması və Əlahiddə Ümumqoşun Ordu ilə müxtəlif güc strukturlarının birgə fəaliyyətinin planlaşdırılmasından ibarətdir. Təlimə Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələri ilə yanaşı, Əlahiddə Sərhəd Diviziyasının, Əlahiddə Əməliyyat Briqadasının və Mülki Müdafiə Alayının bölmələrinin ümumilikdə 5 minə yaxın şəxsi heyəti, 250-dən artıq zirehli və 500-ə yaxın avtomobil texnikası cəlb edilib.

Üç mərhələdə keçirilən təlimin birinci mərhələsində Əlahiddə Ümumqoşun Ordunun, digər güc strukturlarının və Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri tam döyüşə hazırolma vəziyyətinə gətirilərək düşmənin dayandırılması və əks-zərbə əməliyyatı planlaşdırılması aparılıb. İkinci mərhələdə əks zərbənin endirilməsi, düşmənin darmadağın edilməsi və itirilmiş vəziyyətin əlverişli hədlər üzrə bərpa edilməsi, üçüncü mərhələdə isə əks-hücumu davam etdirərək, düşmən ehtiyatlarının məhv edilməsinin başa çatdırılması və əlverişli ərazi sahələrinin nəzarət altına alınması tapşırıqları icra olunub.



Təlimin ssenarisinə əsasən düşmənin fəaliyyətinin izlənilməsi, atəş vasitələrinin, ehtiyatlarının və vacib obyektlərinin koordinatlarının dəqiq təyin olunması məqsədilə pilotsuz uçuş aparatları və vizual müşahidə vasitələrindən istifadə etməklə kəşfiyyat bölmələri fəaliyyətə başlayıb. Naxçıvan Əlahiddə Sərhəd Diviziyasının Çevik Hərəkət Taboru hücum əməliyyatını davam etdirməyə qüvvəsi yetməyən düşmənin dövlət sərhədi boyu keçirdiyi kəşfiyyat-diversiya fəaliyyətlərinə qarşı tədbirlər görərək dövlət sərhədini möhkəmləndirib, hava məkanını pozmuş düşmən aviasiyası hava hücumundan müdafiə bölmələrinin dəqiq zərbələri ilə məhv edilib.



Yüksək dəqiqlikli atəş idarəetmə sistemləri ilə təchiz edilmiş Əlahiddə Ümumqoşun Ordunun artilleriya birləşmə, hissə və bölmələri düşmənin toplanma rayonlarına çıxarılmış bölmələrinə, aviasiya eskadrilyasının atəş-dəstək vertolyotları isə düşmənin ehtiyatlarına və zirehli obyektlərinə atəş zərbələri endiriblər.

Müasir raket, reaktiv və artilleriya sistemlərinin cəlb edilməsi ilə əks-zərbə planına uyğun olaraq ordu artilleriyası atəş hazırlığına başlayaraq düşmənin müdafiə dərinliyində yerləşən vacib dövlət və hərbi obyektlərinə, silah sistemlərinə, artilleriya və idarəetmə məntəqələrinə zərbələr vurub. Tanklar, piyadanın döyüş maşınları və tank əleyhinə vasitələrlə düşmənin ön xəttində və yaxın dərinliyində yerləşən zirehli texnikaları və “TOS-1A” müasir ağır odatan sistemi ilə onun taqım dayaq məntəqələri, artilleriya və minaatan batareyaların atəş mövqeləri məhv edilib, Əlahiddə Ümumqoşun Ordu Komandanı əldə edilmiş atəş üstünlüyündən istifadə edərək düşmənə qətiyyətli zərbə endirmək məqsədilə birləşmə və hissələrin hücuma keçməsi üçün əmr verib. Təlimin gedişində təmir-təxliyə, maddi-texniki və tibbi təminat tapşırıqları da uğurla yerinə yetirilib.

Dağlıq ərazidə texnikanın hərəkətinin məhdud olduğu rayonlarda atəş dəstəyinin fasiləsiz təmin edilməsi üçün artilleriya bölmələrinə “Mİ-17V” tipli nəqliyyat vertolyotlarından “Mİ-35M” vertolyotlarının hava növbətçiliyi ilə paraşütlə döyüş sursatı atılıb. Bölmələrin hücumunun dərinliyə sürətlə inkişaf etdirilməsi üçün taktiki və hava desantı təyin olunmuş rayonlara vertolyotlar vasitəsilə endirilib.

Təlimə cəlb edilmiş birləşmə və hissələr qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirərək hədəf və maketlərin 90 faizindən çoxunu məhv edib və düşmən üzərində qələbə çalıblar.

Sonda hərbi vertolyotlar Azərbaycan və Türkiyə bayraqlarını səmada nümayiş etdirib, ümummilli lider Heydər Əliyevin “Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam” kəlamı səslənib. Ali Məclisin Sədri Əlahiddə Ümumqoşun Ordunun silahlanmasına daxil olmuş yeni silah, texniki avadanlıqlar və pilotsuz uçuş aparatlarına baxıb. Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev təlimin başa çatması barədə raport verdikdən sonra təlimdə iştirak edən şəxsi heyətlə görüş olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov əsgər, zabit və tədbir iştirakçılarını Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə təlimlərinin başa çatması və Azərbaycan xalqının Milli Qurtuluş bayramı münasibətilə təbrik edərək deyib: “Bu gün Milli Qurtuluşun bəhrələri özünü Azərbaycan xalqının həyatının bütün sahələrində, o cümlədən ordu quruculuğunda da göstərir.

Ardı Səh. 11

# Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilib













Əvvəli-Səh-10

Dövlətin müstəqilliyi onun ordusunun qüdrətindən asılıdır. O ölkədə güclü ordu yaradıla bilər ki, orada sabitlik və iqtisadi inkişaf olsun. Milli Qurtuluş Günündən başlanan sabitlik və həyata keçirilən sosial-iqtisadi islahatlar Azərbaycan ordusunu daha da qüdrətləndirmişdir".

Ali Məclisin Sədri deyib: "Bu gün müstəqil Azərbaycanda ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Ölkə Prezidentinin rəhbərliyi ilə ordumuz inkişaf edərək ən müasir səviyyəyə gəlib çatmışdır. Ən yeni silah və texnika ilə təminat, vətənpərvər və peşəkar şəxsi heyət, hərbi qulluqçulara davamlı qayğı Azərbaycan ordusunun reallıqlarıdır. Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki ordu və birləşmələri də mühüm təşkilatlanma yolu keçərək daha da möhkəmlənmişdir. Azərbaycan xalqının Milli Qurtuluş tarixinin mühüm bəhrələrindən biri də Azərbaycan-Türkiyə birliyinin daha da möhkəmlənməsidir. 1993-cü ildə xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan-Türkiyə münasibətlərini bir millətin iki dövləti səviyyəsinə qaldırmışdır. Hərbi əməkdaşlıq haqqında Sazişə əsasən keçirilən hərbi təlimlər bu birliyin, dostluğumuzun və qardaşlığımızın daha bir parlaq ifadəsi oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan-Türkiyə birliyinin strateji əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: "Bizim gücümüz bizim birliyimizdədir. Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür". Birgə hərbi təlim bir daha təsdiq etdi ki, ordunun gücü yalnız silah və texniki təminatla ölçülmür. Ordunun gücü həm də onun sıralarında xidmət edən şəxsi heyətin ruh yüksəkliyi, möhkəm iradəsi, vətənpərvərliyi və peşəkarlığı ilə ölçülür. Hərbi təlimlərdən çıxan nəticə budur ki, Azərbaycan və Türkiyə Ordusu peşəkar olduğu qədər də vətənpərvərdir. Şəxsi heyətlərimiz ən yüksək mənəvi keyfiyyətlərə malikdirlər. Bu, bizim ən böyük nailiyyətimizdir".

Ali Məclisin Sədri hərbi təlimin bütün iştirakçılarını və təşkilatçılarını tapşırıqların uğurlu icrası münasibətilə təbrik edib, şəxsi heyətlərə təşəkkürünü bildirib.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək deyib ki, Əlahiddə Ümumqoşun Ordu təlimdə tam döyüşə hazır vəziyyətə gətirilib, səfərbərlik planları uğurla yerinə yetirilib, hərbi hissələr döyüş uzlaşması keçib. Keçirilən birgə əməliyyat taktiki təlim qardaş Türkiyə Silahlı Qüvvələri ilə hərbi sahədə genişmiqyaslı əməkdaşlığın bariz nümunəsidir. Təlimdə qarşıya qoyulan məqsədə nail olunması bir daha təsdiq etdi ki, Əlahiddə Ümumqoşun Ordu Naxçıvanın dayanıqlı və etibarlı müdafiəsinə tam hazırdır.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin mexanikləşdirilmiş briqada komandiri, general-mayor Ərcan İlhan Milli Qurtuluş Günü münasibətilə təbriklərini çatdıraraq deyib ki, böyük öndərlərimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Yurdda sülh, cahanda sülh" şüarı bu gün keçirilən birgə əməliyyat taktiki təlimdə birliyimizin və bərabərliyimizin ifadəsinə çevrildi. Hər iki silahlı qüvvələrin şəxsi heyəti verilən döyüş tapşırıqlarını peşəkarlıqla yerinə yetirməklə, eyni zamanda, iki ordu arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu nümayiş etdirdilər. Ərcan İlhan birgə hərbi təlimlərin təşkilində və yerinə yetirilməsində əməyi olanlara minnətdarlıq edib.

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimdə qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdiklərinə görə Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətlərini təbrik edərək deyib ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikasının müdafiə potensialının gücləndirilməsinə xüsusi diqqət yetirilir. Hazırda Əlahiddə Ümumqoşun Ordu yüksək döyüş qabiliyyətinə malikdir və düşmənə layiqli cavab verməyə qadirdir. Düşmən bilməlidir ki, Naxçıvanın müdafiəsində ən peşəkar ordu dayanıb. Zakir Həsənov Naxçıvanda ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərə görə Ali Məclisin Sədrinə minnətdarlıq edib. Ali Məclisin Sədri təlimdə fərqlənən zabit, gizir və əsgərləri qiymətli hədiyyələrlə mükafatlandırıb. Sonda zabit, gizir və əsgərlər şəxsi heyət arasındakı birlik və bərabərliyin ifadəsi olan "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarını səsləndiriblər.

# "Vətənin azadlığı üçün qurban lazımdırsa, biri mən!"

*Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun şəhid olduğu zamandan yeddi il ötür*

Azərbaycan torpağının hər qarışında bir qəhrəmanlıq dastanı yaşayır. Bu torpaq vətən uğrunda canından keçən, şəhid olan oğulların qanı ilə suvarılıb. Ayaq basdığımız torpağın altında şəhid ulu babalarımız uyuduğundan bu məmləkət bizim üçün müqəddəsdir, əzizdir. Cadar-cadar olmuş torpaqdan gələn səslər vətən sevgisinin dastanını danışır bizlərə. Vətən, Azərbaycan deyib, ən ali sevgi uğrunda canlarını sipər edərək, düşmənlə üz-üzə dayanan oğullar şəhidlik zirvəsinə yüksəliblər. Belə oğullar sırasında bu gün iftixar hissi ilə adını xatırladığımız Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun da adı var. Yeddi il əvvəl Azərbaycan tarixinin daha bir şanlı səhifəsinə - şəhidlik zirvəsinə yüksəlməsi ilə adını yazdı. Həmin tarix hər bir azərbaycanlının fəxarət duyduğu bir günə çevrildi. Neçə əsrlik qəhrəmanlıq tariximizə yeni səhifə açıldı. Daşlaşmış yaddaşlara vətən, torpaq uğrunda yaşamağa və ölməyə hazır olmağı bacaran vətən övladı Mübarizin də adı həkk olundu. Əbədiləşdi Mübariz. Onu bu ruhda yetişdirən, məhz Azərbaycan torpağına ayaq basmış və Azərbacan torpaqlarının 20 faizini işğal etmiş erməni terrorçularından intiqam almaq və qisas hissi idi. Qorxmadan erməniyə Azərbaycan oğullarının kimliyini isbat etmək üçün mətin addım atdı. Erməni təcavüzkarlarının torpağımıza hakim kəsilməsinə dözə bilmədi, günahsız insanların harayı qulaqlarında səsləndi, ahnalə onun rahatlığına son qoydu və Mübariz xalqın mübariz oğluna çevrildi.

### ŞƏHİD OLANADƏK BU ŞƏRƏFSİZLƏRİN ÜZƏRİNƏ GEDƏCƏYƏM...

Elə Qarabağda başlanan savaşın tarixi onun doğulduğu ilə təsadüf edir. Məlumdur ki, Azərbaycana qarşı olan erməni iddiaları 1988-ci ildən baş qaldırır və dünyaya həmin ildə göz açan Mübariz də erməni vəhşiliklərini, onların törətdikləri əməlləri eşidə-eşidə, görə-görə böyüyür. Düşmənə qəzəbi də elə ağlı kəsəndən sonra olur. Odur ki, mübarizəyə atəşkəs zamanı tək qalxdı. Heç kimi narahat etmədən və kömək ummadan. Bu döyüşə nə qədər tələssə də, amma son məktubunu yazmağı da unutmadı: "Canım, atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam - ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim...".

Düşmən üzərinə tək hücum edərək gücünü göstərdi, hünərini dünyaya bəyan etdi. Azərbaycan torpağının belə oğullar yetişdirdiyinə dünya laqeyd qala bilmədi. İnanmaq çətin olsa da, həyat və gerçəklik bu idi. Zamanımıza örnək olan Mübariz azərbaycanlıların qanını almağa getdi. Neçə-neçə can aldı düşmən canından! Qorxu və vahimə yaratdı bir gecənin içində düşmən canında. Düşmənə aman vermədi. "Vətən", - söyləyib sinəsini qabağa verdi. 18 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində gizir Mübariz İbrahimov təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçdi. Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilməz birinci həmlədə məhv etdi. Sonra isə düşmənin öz silahlarından özünə qarşı istifadə edərək, 5 saat onlarla təkbətək döyüşdü. Düşməni ağır itkilərə məruz qoydu, onların zəif cinahlarını üzə çıxardı. Beləliklə, Azərbaycan döyüşçüsü səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid oldu. Amma düşməndən aman diləmədi. Onsuz da bu addımı atarkən, geri dönməyəcəyini əvvəlcədən bilirdi. Məqsədi patronu sona çatana qədər qisas almaq idi. Axı yoldaşlarına həmişə deyirdi ki, hərənin öz yolu var:"Mən isə yolumu seçmişəm. Düşmənə qan qusdurub ürəyimcə qisas almasam, elə bilərəm ki, Allahım da, valideynlərim də məni bağışlamaz! Vətənin azadlığı üçün qurban lazımdırsa, biri mən!" dedi və elə də etdi.



### "MÜBARİZ YAXŞI BİLİRDİ Kİ, O DÖYÜŞDƏN SAĞ-SALAMAT ÇIXA BİLMƏYƏCƏK, ANCAQ VƏTƏN, TORPAQ SEVGİSİ, ONDA OLAN VƏTƏNPƏRVƏRLİK RUHU ONU ŞƏHİDLİK ZİRVƏSİNƏ UCALTDI"

Atası Ağakərim İbrahimovdan hadisənin səhəri günü oğlunu xəbər alanda və çoxlu silah götürüb və ərazidən uzaqlaşdığını bildirəndə, ata inamla və qətiyyətlə bildirir ki, mən oğlumu tanıyıram, sərhədə tərəf gedin. Cəsurluq, igidlik, mərdlik nümayiş etdirən, Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzinə çevrilən Mübariz İbrahimovu, məhz bu ata tərbiyə etmişdi. Onun dəyərlərinə də yaxşı bələd idi. Oğlu fərari, vətən xaini ola bilməzdi.

Mübariz bir gecənin içində şəxsi rəşadət və şücaət nümayiş etdirdi, düşmənin çoxlu sayda canlı qüvvəsini məhv etdi, mövqelərimizin toxunulmazlığını canı bahasına qorudu. Ermənilər Mübarizə "Rembo" deyirdilər. Sakit, siyasətdən uzaq bir gənc olsa da əzmini və qətiyyətini nümayiş etdirdi. Tanrısını, vətənini canından artıq sevən Mübariz öz qisasını düşməndən belə aldı, oğul vətən borcunu verdi. Şəhid olub, arzusuna qovuşdu.

Ermənilər insanlığa yaraşmayan və insanlıq üçün qara ləkə olduqlarını bir daha milli qəhrəmanımızın nəşini belə qaytarmaq istəmədikləri zaman da ortaya qoydular və onu gizlətməyə çalışdılar. Ermənistan tərəfi heç bir sivil qaydalara əməl etmədən, onun cənazəsini qaytarmaqdan imtina edirdi. Bu, misli görünməmiş vəhşilik, mənəviyyata və dini normalara sığmayan hərəkət yalnız erməniyə məxsusdur. Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Rusiya Federasiyası prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair 27 oktyabr 2010-cu il tarixli birgə bəyanatına uyğun olaraq, eyni zamanda, Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının beynəlxalq təşkilatlarla apardığı müntəzəm və səmərəli danışıqlar nəticəsində Mübarizin cənazəsi 6 noyabr 2010-cu il tarixdə vətənə gətirildi. Şəhid qəhrəman İkinci Fəxri Xiyabanda dəfn olundu.

Vida mərasimində iştirak edən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışı zamanı onun vətənpərvərliyini yüksək qiymətləndirir: "Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək, ancaq Vətən, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz İbrahimov bütün gənclər üçün örnəkdir, nümunədir". Mübarizin qəhrəmanlığını dövlətimiz yüksək dəyərləndirdi. Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub-saxlanılmasında müstəsna xidmətinə və göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü. Xatirəsinin əbədiləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzaladı. Sərəncama əsasən, bu gün Biləsuvar rayonunun orta məktəblərindən biri Mübariz İbrahimovun adını daşıyır. Biləsuvar rayonunda küçələrdən biri Mübariz İbrahimovun adınadır. Eyni zamanda, bu adı əbədiləşdirmək üçün 2011-ci ildə "Palmali" şirkətinin Türkiyədə hazırlardığı yük gəmisi Mübariz İbrahimovun adını daşıyır. "İstiqlal" snayper tüfəngləri ailəsindən 12,7 mm çaplı ikinci tüfəng onun şərəfinə "Mübariz" adlandırılıb.

Keçdiyi qısa 22 illik ömür yolu neçə-neçə əsrləri əhatə edəcək. Şücaəti, qeyri-adi cəsarəti ilə əfsanəyə çevrilən Mübariz İbrahimov özünə məxsus qəhrəmanlıq məktəbi yaratdı. Vətəni necə sevməyi, Azərbaycanı necə qorumağı bir daha əməlləri və keçdiyi şanlı yolu ilə bizlərə öyrətdi.

Azərbaycan Mübarizlərin qanını yerdə qoymayacaq. Zaman yetişəcək ki, onların ruhu işğal altında olan torpaqlarımızın azad olduğunu görüb sevinəcəkdir. Bu gün Azərbaycanda minlərlə MÜBARİZLƏR var. Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin əmrini gözləyirlər ki, düşmənə layiq olduqları cəzanı versinlər. Şəhid vətən övladlarının şücaəti və qəhrəmanlığı bir daha onu göstərir ki, Azərbaycan buna qadirdir. Azərbaycanın bu gün döyüş hazırlığı, maddi-texniki təchizatı, kifayət qədər silah-sursatı, peşəkar ordusu, ruh yüksəkliyi də qələbənin təminatına əminlik yaradır. Ötən ilin aprel ayında cəbhə xəttində baş verənlər, həqiqətən də, Azərbaycanda Mübarizin davamçılarının olduğunu və erməniyə kim olduqların göstərə bildilər. Şəhid qanı axıdılan torpaqda qəhrəmanların hər zaman varlığı duyulur.

Bəli, tarix heç zaman unudulmur, tarix yazılır. Tarixi yazan isə Vətənin namuslu, mərd və MÜBARİZ oğullarıdır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Azərbaycanda insan hüquqları bioetika kontekstində

***Bioetika anlayışı 1978-ci ildə nəşr olunmuş "Bioetikaya dair Ensiklopediya"da aşağıdakı sahələrdə verilmişdir:***

**1.** Tibb peşəsinin etik problemləri;
**2.** İnsan haqqında tədqiqatlar sahəsində əmələ gələn etik problemlər;
**3.** Səhiyyə sahəsində dövlət və beynəlxalq siyasəti ilə əlaqədar sosial problemlər ailə planlaşdırılması və demoqrafik nəzarət;
**4.** İnsanın ekosistemin digər canlı mövcudat proseslərinin həyat proseslərinə insanın müdaxiləsinin törətdiyi problemlər.

Görkəmli amerikan bioetiki, dünya şöhrətli həkim A.R.Conson bioetikanın 1962-ci il noyabrın 9-da meydana gəldiyini bəyan etmişdir. Həmin gün "jurnalist Şeyn Aleksander "Layf" jurnalında məqaləsi çapdan çıxmış, insan hüquqları və bioetikaya dair öz mülahizələrini bildirmişdir. Amerikalı ankoloq Van Remiler Potterin 1970-ci ildə "Bioetika - gələcəyə körpüdür" məqaləsindən sonra "bioetika" termini elmi dövriyyəyə daxil edildi. AMEA-nun müxbir üzvü, biologiya elmlər doktoru Telman Ağayev və b.ü.f.d Şafiddin Hacıyev yazırlar: "Bioetika anlayışı lap öncə ümumhəyat etikası, onun fəlsəfi və pedaqoji mahiyyəti zəminində formalaşır. Bəzi hallarda bioloji (fizioloji, biokimyəvi,anatomo-morfoloji, genetik və s.) və tibb eksperimentlərin ruhu bioetikanın ideologiyasısına uyğun gəlsə də, bir çox hallarda bu ahəngdarlıq pozulur. Bioetika alimləri insanların həyatını təhlükə altına ala bilən hər cür elmi işlərdən çəkindirməyə çalışır, təcrübə naminə çoxlu sayda canlı varlıqları məhv etməyin insan mənəviyyatına sığışmayan bir hal olduğunu göstərirlər. Böyük etik təlimlər kimi bioetika da insanların şüurunda canlı təbiətə, bitki və heyvanlara, uşaq və qocalara, xəstə və ümidsiz adamlara mümkün qədər humanist münasibət, qayğı göstərməyə çağırır, belə münasibətləri formalaşdırır və inkişaf etdirir, onların praktik olaraq, reallaşdırılması naminə müəyyən norma və qaydaları, prinsipial yanaşmaları işləyib-hazırlayır".

Biotexnikanın insan hüquqlarının təmin olunması kontekstində qayda və prinsipləri aşağıdakılardır:

İnsan ləyaqətinə hörmət, şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur;

Xeyirxahlıq etmək, bədxahlığa yol verməmək prinsipi;

Bəşəriyyətin müstəqilliyinə hörmət prinsipi;

Ədalətlilik prinsipi;

Doğruçuluq, düzgünlük prinsipi;

Özəl həyatın toxunulmazlığı prinsipi.

Azərbaycanlı tədqiqatçıları T.Ağayev və Ş.Hacıyev göstərirlər ki, XX əsrin sonlarında biotəbabət üzrə ekspriment işini daha həssas humanist qaydalar əsasında aparmaq, elm ilə bioetika arasında yaranın ziddiyyətləri aradan qaldırmaq, eksperimentçilərə mənəvi yardım göstərmək, onları dövlət qanunvericilik və icra aparaları, habelə, ictimaiyyətlə dialoqa sövq etmək, rəsmi bioetik təşkilatları və bu sahədə xüsusi elmi forumları çağırmaq zərurəti yaratdı. İlk bioetik komitə Avstraliya və Yeni Zelandiyada, sonra isə bəzi Avropa ölkələrində, ABŞ və Kanadada yaradılmışdır. Bioetika üzrə Milli Komitə Rusiyada 1991-ci ildə, Azərbaycan Respublikasında isə, 90-cı illərin sonlarında təsis edilmişdir. Rusiya Tibb Elmləri Akademiyasının təşəbbüsü ilə bu ölkədə 1995-ci ildə Biotibb Etika Komitəsi yaradılmışdır. Fiziologiya elmi öz əsas, eksprimental istiqamətlərini beynəlxalq və mili bioetika qurumlarının tövsiyə etdiyi humanist norma və prinsiplər əsasında inkişaf etdirir.

İnsan hüquqlarının bioetika kontekstində təmin olunması Azərbaycanda sürətlə inkişaf edir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə YUNESKO-nun Beynəlxalq Bioetika Komitəsinin sessiyası, Şərqi Avropada ilk dəfə olaraq, 2011-ci ilin may-iyun aylarında Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilmişdir.

Bundan başqa, postsovet məkanında ilk dəfə olaraq, bioetika və tibbi-hüquq elmi ixtisası AAK-ın nomenklaturasına daxil edilmiş, Azərbaycan Televiziyasında "Bioetika" verilişi yaradılmış, o, bir fənn kimi Azərbaycanın bəzi ali məktəblərində tədris edilir. Azərbaycan tədqiqatçısı, siyasətşünas Xalid Niyazov "Azərbaycan" qəzetində bioetika, tibbi hüquq və məhkəmə təbabəti üzrə dünyada tanınmış və Azərbaycanda ilk mütəxəssislərdən biri, YUNESKO-nun Bioetika Kafedrasının Azərbaycan Bürosnun rəhbəri, Ümumdünya və Amerika Tibbi Hüquq Assosiasiyasının üzvü, Avropa Tibbi Hüquq Assosiasiyasını İdarə Heyətinin üzvü, professor Vüqar Məmmədovdan aldığı müsahibədə insan hüquqlarının bioetik kontekstində təmin olunması sahəsində uğurları barədə mülahizələrindən bəzi məqamlara diqqət yetirək: "Bioetika "həyatın etikası" anlamına gəlir və mütəxəssislər onu insanın təbabət və biologiyadakı fəaliyyətinin mənəvi tərəfləri haqqında elm adlandırırlar. Bioetika biotibbi elmlərin tərəqqisi və ən yeni texnologiyaların insanın gündəlik həyatına tətbiqi ilə əlaqədar yaranan etik, tibbi, bioloji və hüquqi problemlərlə məşğul olan elmlərarası tədqiqat sahəsidir. Bioetika ənənəvi etikanın, hüquq, fəlsəfə və təbabətin elementlərini özündə birləşdirir.

Planetimizdə bioetika və tibbi hüququn bərqərar olması yüksək biotibbi texnologiyalar sahəsindəki inqilabi nailiyyətlərlə şərtlənmişdir. XX əsrin 70-ci illərinin əvvəllərində təbabətdə elmi-texniki tərəqqinin nailiyyətlərini, transplantologiya, gen mühəndisliyi, reanimatologiya, reproduktiv texnologiyalar və s. sahələrdə yeni imkanlar qiymətləndirmək zəruriliyindən ABŞ-da yaranan bioetika tezliklə həm tibb elminin, həm də tibbi etikanın hüdudlarından kənara çıxdı. Tibbi hüquq isə hüququn müstəqil sahəsi kimi formalaşmağa başladı. Belə bir vəziyyətin yaranması biologiya və təbabət sahəsində ən yeni ixtiraların təkcə həyat və ölüm, norma və patologiya, xeyir və şər haqqında təsəvvürlərimizi deyil, eləcə də, bütün bəşəriyyətin həyatının inkişaf perspektivlərini dəyişməyə qadir olması ilə şərtlənir. Müasir təbabətin sürətlə dəyişilməsi, demək olar ki, bütün tibb aləminin qarşısında bioetik və hüquqi problemlərin nəzərdən keçirilməsinin və həllinin zəruriliyi məsələsini qaldırdı və indi də bu, davam edir. Bioetikaya yeni reproduktiv texnologiyaların (süni mayalandırma, surroqat analıq), insanlar və heyvanlar üzərində eksperimentlərin keçirilməsinin, evtanaziyanın etik və hüquqi problemlərini, ölməkdə olan xəstələrə münasibət, vaksinləşdirmə və QİÇS, genetika, transplantologiya, təbabətdə ədalət, insanın klonlaşdırılması, kötük hüceyrələri ilə manipulyasiya, həkimlər və biznesin qarşılıqlı münasibəti problemlərini aid edirlər.

Son iki ildə Azərbaycanda da bioetika sahəsində konkret layihələr həyata keçirilir. Belə ki, AMEA-nın İnsan Hüquqları İnstitutunda Bioetika və tibbi hüquq şöbəsi açılmış, YUNESKO-nun Bioetika kafedrasının təmsilçiliyi təsis edilmişdir. Ötən ilin sonlarında "YUNESKO-nun Bioetika Proqramının Azərbaycanda reallaşması" mövzusunda beynəlxalq simpozium keçirdik. Həmin tədbirdə YUNESKO-nun Bioetika kafedrasının müdiri professor Amnon Karmi də iştirak edərək, bioetika və onun müxtəlif aspektləri ilə bağlı məruzə ilə çıxış etdi. Bu il də tədbirlər sarıdan kifayət qədər məhsuldar olmuşdur. Məsələn, yanvar ayında xarici ekspertlərin iştirakı ilə "Azərbaycanda palliativ yardım proqramı bioetikanın əsas prinsipləri" mövzusunda elmi-praktik seminar təşkil etmişdik. YUNESKO-nun Beynəlxalq Bioetika Komitəsinin XVIII sessiyasında fəal iştirak etdik. YUNESKO-nun baş direktorunun müavini, sosial və humanitar işlər üzrə sektorun rəhbəri xanım Pilar Alvares-Laso, YUNESKO-nun Bioetika şöbəsinin müdiri xanım Dafna Feynholds, o cümlədən Bioetika üzrə Beynəlxalq Komitənin 36 ölkəni təmsil edən ekspertləri və çoxsaylı müşahidəçiləri də bu beynəlxalq əhəmiyyətli elmi sessiyaya qatılmışdılar.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin, eləcə də, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun Xoşməramlı Səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın səhiyyəyə və təbabətə ciddi diqqət ayırdıqları bir şəraitdə Səhiyyə Nazirliyinin rəhbərliyi altında əhaliyə göstərilən müalicə-profilaktik xidmətlərin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli işlərin görüldüyü bir vaxtda tibbi hüquq və bioetika sahəsində olan boşluqların aradan qaldırılması, görülən böyük işlərin nəticəsiz qalmaması üçün hüquqi və etik normaların inkişafına da lazımi diqqət yetirmək gərəkdir. Oktyabr ayında keçirdiyimiz konfransda, məhz tibbi hüququn səhiyyədə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsinə necə töhfə verməsi haqda iştirakçılara geniş məlumat veriləcək.

Ulu Öndər Heydər Əliyev demişdir ki, həkim üçün ən əsas keyfiyyət yüksək mənəviyyatdır. Bunun üçün də həkimlər, tibb işçiləri bioetika və tibbi hüququ yaxşı mənimsəməlidirlər. Etiraf edək ki, bu sahədə bir çox etik və hüquqi normaların hazırlanması istiqamətində elmi tədqiqatların və araşdırmaların aparılmasında digər ölkələrə nisbətən xeyli gecikmişik. Xəstə hüquqları, məlumatlandırılmış razılıq, ölüm hallarının araşdırılmasına yanaşmalar, həkimlərin əczaçılar biznesi ilə əlaqələrinin etik və hüquqi tərəfləri sahələrində ölkəmizdə hələ heç bir ciddi elmi araşdırma və yaxud tədqiqat aparılmamışdır".

Artıq bu gün insan hüquqlarının bioetik kontekstində təmin olunmuş sahəsində Azərbaycanda tədbirlər genişlənir. Bu sahəyə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevlə yanaşı, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da xüsusi diqqət verir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Müsavat partiyasında qurultay və başqanlıq seçkilərindən sonra baş verən istefa və parçalanmalar bu gün də sürətlə davam etməkdədir. Məsələ ondadır ki, sabiq başqan, hazırda "MSDM"-ə rəhbərlik edən İsa Qəmbərin partiyadaxili müdaxilələri hələ də ön plandadır. Bu haqda olan söz-söhbətləri müsavatçılar da etiraf edirlər. Bəziləri iddia edirlər ki, əgər İ.Qəmbər öz yerini saxta seçkilər yolu ilə Arif Hacılıya təhvil versə də, partiyanın sükanı hələ də onun əlindədir və belə bir halın yaşanmasını təşkilata ciddi zərbə kimi qiymətləndirirlər. Bəziləri isə bunun normal olduğunu deyərək, İ.Qəmbərin buna haqqı olduğunu bildirirlər. Məhz bu cür ziddiyyətlərin nəticəsində qarşıdurmalar böyüyür və tərəflər arasındakı söz savaşları isə artır.

### Sabiq müsavatçı funksioner: "Partiya içində siyasi səviyyəsiz, qaragüruh qanadın hegemonluq qazanması nəticəsində Müsavatda hər hansı normal siyasi fəaliyyətin davam etdirilməsi, praktik olaraq, mümkünsüz vəziyyətə düşüb"

Onu da qeyd edək ki, dağıdıcı müxalifət cameəsində Müsavat partiyasının qocalar təşkilatı kimi tanındığı dəfələrlə bəyan edilib. Çünki burada gənclərin, ümumiyyətlə, fəaliyyət göstərmək imkanı yoxdur. Bir neçə gənc var ki, onlar yalnız seçkilərdən-seçkilərə istifadə edilərək, sonradan lazımsız əşya kimi kənara atılır. Əlbəttə, özlərinə qarşı belə bir davranışı görən gənclər, ümumiyyətlə, müsavatçılıq ideologiyasına nifrət edir, o cümlədən, partiyanın

TƏRS BAXIŞ

# Müsavatdakı daxili çatlar partiyanın fəaliyyətini iflic edib

*İsa Qəmbər -Arif Hacılı cütlüyündən başqa partiyada kimsə qalmayacaq*

MÜSAVAT

rəhbərliyinə qarşı antipatiya hissləri qabarır. Bu, başa düşüləndir. Məsələn, elə də uzağa getməyərək, Müsavatın qurultayından sonra partiyadaxili saxtakarlıqlara dözməyərək, istefa vermiş gənclər təşkilatının sədri Əhliman Abbaslının həmin vaxtlar mətbuata verdiyi açıqlamasını xatırlaya bilərik. O, partiyadan istefası ilə bağlı açıqlama verərək, bildirmişdi ki, Müsavatda hər hansı siyasi fəaliyyətin davam etdirilməsi mümkünsüzdür: "Partiya içində siyasi səviyyəsiz, qaragüruh qanadın hegemonluq qazanması nəticəsində, Müsavatda hər hansı normal siyasi fəaliyyətin davam etdirilməsi, praktik olaraq, mümkünsüz vəziyyətə düşüb".

### Müsavatda etirazçılara qarşı linç kampaniyası davam edir

Digər tərəfdən, İ.Qəmbər-A.Hacılı cütlüyü haqqını tələb edən hər kəsə qarşı amansızcasına davranır, hətta onları əxlaqsızcasına təhqir belə etdirirlər. Bunun üçün Müsavatda xüsusi qruplar da mövcuddur ki, sosial şəbəkələrdə etiraz səslərini ucaldanlara qarşı söyüşlər yağdırırlar. Bu baxımdan, Müsavatın gənclər təşkilatının sabiq sədri xatırlatmışdı ki, partiyadakı bu qanadın əxlaq və insani dəyərləri unutmasının pik nöqtəsi hələ qurumun 8-ci qurultayı ərəfəsində baş vermişdi. Mətbuatdan ictimaiyyətin xəbərdar olduğu kimi açıq, ya da gizli şəkildə sosial şəbəkələrdə rəhbərləri və ilham mənbələri olduğu şəxslər tərəfindən böhtanla, təhqirlərlə və hikkə ilə silahlandırılmış bu şəxslər özlərindən fərqli olan hər kəsə qarşı linç kampaniyası aparıblar.

Ümumiyyətlə, müsavatdaxili qarşıdurmalar partiyadaxili çatların əmələ gəlməsi prosesinə təkan verməklə yanaşı, qurumun fəaliyyətini də iflic edir. Çünki istər daha öncə, istərsə də hazırda söylənilən fikirlər, iradlar və təhqirlər də onu göstərir ki, bu proses elə də uzun sürməyəcək. Nəinki İ.Qəmbər, hətta onun etibar etdiyi mövcud rəhbərlik də Müsavatın parçalanaraq məhv olmasının qarşısı ala bilmək imkanına sahib ola bilməyəcəklər. Nəzər alsaq ki, vaxtilə Müsavatda fəaliyyət göstərmiş Qubad İbadoğlu, Hüseyn Məlik, Tural Abbaslı, Səxavət Əlisoy və s. kimi insanlar hazırda müxtəlif müxalifətyönlü siyasi qurumlarda təmsil olunurlar, artıq bunu bir dərin parçalanma kimi də dəyərləndirmək mümkündür. Partiyadan ayrılanların digər bir hissəsi isə, artıq tamamilə siyasətdən gediblər. Yerdə qalanları da bu addımı atmaq ərəfəsindədirlər. Əgər belə davam edərsə, Müsavat rəhbərliyində İ.Qəmbər-A.Hacılı monopoliyası çərçivəsində uzağı beş-üç nəfərin qalacağını proqnozlaşdırmaq olar.

**Rövşən RƏSULOV**

# AXCP-"REAL" qarşıdurması

*İlqar Məmmədovun təşkilatı Əli Kərimlini siyasi səhnədən siləcək*

Son günlər "Respublikaçı Alternativ Hərəkatı" və ənənəvi müxalifət düşərgəsində təmsil olunan dağıdıcı siyasi qurumlar arasında kəskin qarşıdurmalar müşahidə olunmaqdadır. "REAL"-ın icraçı katibi Natiq Cəfərli müxalifəti ötən əsrin 80-90-cı illərində ilişib qalmaqda, "azadlıq" və digər ənənəvi şüarlarını "devalvasiyaya uğratmaqda" ittiham edib. O, ənənəvi düşərgə təmsilçilərini köhnəçilikdə, düzgün siyasət aparmaqda və xarici qüvvələrdən sifariş almaqda ittiham edib. AXCP sədri Ə.Kərimlinin söyüş qrupu və "like" (bəyənmə) edənlər qismində fəaliyyət göstərən adamları N.Cəfərliyə qarşı hücuma keçiblər. Gözəl Bayramovanın həbsindən sonra oxu daşa dəyən Ə.Kərimli mitinq keçirməyi çıxış yolu hesab edərək, utanmadan "REAL"-ı keçirməyi planlaşdırdıqları aksiyada iştirak etməyə dəvət edib. Ancaq bütün bunlara baxmayaraq, AXCP üzvlərinin sosial şəbəkələrdə İ.Məmmədovun və N.Cəfərlinin ünvanına təhqir dolu fikirlər yazması vəziyyəti daha da qəlizləşdirib.

### "Milli Şura" ilə "REAL" arasında qarşıdurmanın səbəbləri

"Milli Şura" tərəfindən "REAL"-a aksiyada birgə iştirakla bağlı hər hansı müraciət və ya təklif etməyib və edilə bilsəydi də, təşkilat olaraq o səviyyəsiz qurumun mitinqində iştirak etməyəcəkdik". Bu fikirləri mətbuata açıqlamasında "Respublikaçı Alternativ Hərəkatı"nın idarə heyətinin üzvü Azər Qasımlı bildirib: "Ataların gözəl deyimi var : "Utanmasan, oynamağa nə var ki". Dünənə

AHC REAL

qədər bizə qarşı təhqirli sözlər deyən xarici qüvvələrin nökəri olan Ə.Kərimli kimilər indi keçirmək istədikləri mitinqə dəvət edir. Bu da təəccübli deyil. Çünki Ə.Kərimli satqınçılıq nümunəsi olduğu kimi, həm də həyasızlığın son həddidir".

A.Qasımlı onu da bildirib ki, Ə.Kərimlinin məqsədi mənim vasitəmlə təşkilatı parçalamaq, onu İ.Məmmədovun və digər "sözə qulaq asmayan" şəxslərin nəzarətindən çıxartmaqdır. Qısası, hər kəslə-bütün müxalifət qurumları ilə əsl düşmənçilik münasibəti yaradan Ə.Kərimlinin belə bir şəraitdə mitinqə getməyi rüsvayçılıqla sonunclanacaq. Heç bir siyasi təşkilat bu adamı və təmsil etdiyi qurumu dəstəkləmir: "Şər-böhtan, təhqir maşınına çevrilən AXCP və "Milli Şura"nı kim dəstəkləyər ki!? Belə bir şəraitdə mitinqə gedən və ölkədə "ana müxalifət" olduğunu göstərmək üçün onun dediklərini yerinə yetirməyən, yersiz, məntiqsiz tələblərinə boyun əyməyən hər kəsə şər atan Ə.Kərimlinin rəhbəri olduğu partiya da, "Milli Şura" da iflasın astanasındadır". Təşkilatın funksioneri onu da bildirib ki, xalqdan heç bir halda dəstək ala bilməyən Ə.Kərimlini də qıcıqlandıran odur ki, heç kim onun yanında deyil: "Necə deyərlər, xalq şərin, böhtanın yanında deyil, inkişafın, tərəqqinin və saflığın yanındadır. Heç şübhəsiz ki, sosial şəbəkələrdə mənasız çağırışlar etməklə insanlarda dərin ikrah hissi yaradan Ə.Kərimlinin yanında partiyanın barmaqla sayılacaq qədər üzvlərindən başqa kimsə qalmayacaq".

**R.KAMALQIZI**

# Xədicə İsmayılla "REAL"çılar arasında dava düşdü!

***Dağıdıcı müxalifət düşərgəsindəki dava-dalaş yenidən qızışıb. İllərdir bir-birilərinə qarşı əsl düşmənçilik hərəkətləri edən və bununla da gündəmdə qalmağa cəhd edən dağıdıcı müxalifətin "başbilənləri"nin şəxsi istəkləri bitmək bilmir. Şəxsi maraqlarını milli maraqlardan üstün tutan dağıdıcı müxalifət "lider"lərinin dava-dalaşları da artıq yeni məcraya qədəm qoyub.***



Bu dəfə dağıdıcı müxalifətin köhnə tanışları, vaxtilə özlərini "bacı-qardaş" adlandıran Xədicə İsmayıl və "REAL"ın idarə heyətinin üzvü Erkin Qədirli üz-üzə gəlib. X.İsmayıl və E.Qədirli arasındakı dostluq münasibətləri vaxtilə qrantların bölünməsinə görə pozulmuşdu. Təsadüfi deyil ki, bu söhbətə reaksiya olaraq, xarici təşkilatlar da hər iki şəxsi "qrantyeyənlər" adlandırmışdı. Qədirlinin "REAl"-ın Respublika Günü ilə bağlı keçirilən toplantısındakı çıxışı yeni Feysbuk qarşıdurmasına səbəb olub. E.Qədirli toplantıda etiraf edib ki, "REAL" çox kiçik addımlarla yeriyir. Yəni təmsil etdiyi təşkilatı dolayısı ilə "tısbağa yerişli" təşkilat adlandıran E.Qədirlinin bu fikirləri X.İsmayılın xoşuna gəlməyib. O, sosial şəbəkədə Qədirlini tənqid, hətta təhqir edən statuslar yazmağa başlayıb və "REAL" üzvlərini qorxaq adlandırıb. E.Qədirli cavab yazdıqdan sonra X.İsmayıl İlqar Məmmədovu və tərəfdarlarını təhqir edib, onları "uzunqulaq" adlandırıb. E.Qədirli X.İsmayılı səhv addımlar atmaqda ittiham edib. "Millətimizi açıq-aşkar qorxaq adlandıran və təhqir edən adamların yazısını paylaşırsan, mənim sözlərimdə isə xalqımızı aşağılayan mənə olduğunu deyirsən".

Bundan sonra X.İsmayılın aylıq "maaş" verdiyi "Nida"çılar da E.Qədirlini təhqir etməyə başlayıb. Bununla kifayətlənməyən "Nida"çılar erməni alimlərdən və siyasətçilərindən misallar çəkməyə başlayıblar.

Xatırladaq ki, dağıdıcı müxalifət nümayəndələrinin ermənilər açıq şəkildə müdafiə etməsi, onlardan sitatlar gətirmələri ilk hal deyil. Onlar uzun illərdir ki, erməni havadarlarından qrantlar alaraq, Azərbaycan dövlətçiliyinin əleyhinə iş aparırlar. Heç şübhəsiz ki, onların bu addımları heç vaxt nəticə verməyib və verməyəcəkdir də. Göründüyü kimi, şəxsi intriqalarla gündəmi zəbt etməyə çalışan bu cür satqın ünsürlər öz maraqlarına xidmət etmək üçün milli maraqlarımıza zərbə vurmağa çalışırlar.

**SAMİR**

# Azərbaycanda insanların hüquq və azadlıqlarının təmin olunması dövlət maraqları müstəvisində

***Məlum olduğu kimi, maraqlar ictimai münasibətlərin xüsusi növü olub dövlət və insan münasibətlərində mühüm rol oynayır. Vətəndaş cəmiyyəti daxilində müxtəlif maraq və mənafeləri düzgün əlaqələndirməzdən, ictimai-siyasi gerçəkliklə sosial ədalət prinsiplərini ardıcıl surətdə bərqərar etmədən, hər hansı milli dövlət quruculuğundan danışmaq çətindir. Hüquqi dövlət milli-mənəvi simanın formalaşması, milli həyatın çoxcəhətli komponentlərinin inkişafı üçün mühüm məziyyətdir.***

Tədqiqatçılar göstərirlər ki, hüquqi və milli-dövlət maraqlarının formalaşmasında dövlət və onun tələbatlarının ödənilməsi şəraitinin müəyyənləşməsində dövlətin xüsusiyyətləri həlledici rol oynayır. Fərdi və qrup şüuruna münasibətdə obyektiv olan dövlətə münasibətdə obyektiv olmaya da bilər.

Keçmiş sovet tədqiqatçıları və Azərbaycan alimləri millət və dövlətin eyni məna vermədiyini, onlar arasında fərqlər olduğunu, etnik-milli birliyin dövlət birliyilə üst-üstə düşmədiyini, milli və dövlət maraqlarının fərqləndiyini göstərmişlər.

Eyni zamanda, milli və dövlət maraqları arasında dərin qarşılıqlı əlaqənin mövcudluğu xüsusi nəzərə çatdırılır. Vətəndaş cəmiyyəti, sosial-mədəni və mənəvi həyat fəaliyyətinin təminatı onların yenidən təşkili və nəsildən-nəslə ötürülməsi sistemi ayrı-ayrı fərdlərin və kollektivlərin özünü reallaşdırması həm fərdi, həm də kollektivçilik və modemizm, yaxud azərbaycançılıq əsasında vahid ümumi təsəvvür tipini əsaslandırmaqla millətin və dövlətçiliyin bütün problemlərinin həll ediləcəyi fikrinə şübhə ilə yanaşır. Bu ideyanı qəbul etməyənləri zor gücünə inandırmağı isə o, kəskin tənqid edir: "Belə mühakimələrdə əsas məsələ unudulur ki, bu, ancaq həmin ümumi təsəvvürlər işdə millətin maraqlarını əks etdirərsə, baş verə bilər. Bu isə, o deməkdir ki, maraqların subordinasiyası, bütövlükdə və tamamilə şüurlu fəaliyyət sahəsinə aiddir və dövlət də idarəetmə və hakimiyyət sistemindən asılıdır. Bu zaman maraqların müxtəlif tərzcə dərk olunması səviyyəsi müxtəlif rol oynayır.

Azərbaycanda müasir hüquqi, milli-dövlət quruculuğu siyasətində "xalq dövlət üçün deyil, dövlət xalq üçün olmalıdır" prinsipi həyata keçirilir. Dövlət müstəqilliyinin möhkəmlənməsinin əsas amili milli-dövlət maraqlarının ümummilli maraqlarla üst-üstə düşməsidir. Azərbaycanda dövlətçilik ənənəsi formalaşdırılmaqla yanaşı, dövlətçilik ideologiyası və dövlətçilik psixologiyası yaradılır.

Azərbaycan dövlətçiliyinin ən uğurlu fəaliyyətindən biri bütün dövlətlərlə bütün sahələrdə (siyasi, iqtisadi, mədəni-mənəvi) münasibətdə öz milli maraqlarından çıxış etməsidir.

Vətəndaş cəmiyyətinin və hüquqi-milli dövlətin formalaşması mərhələsində dövlətin ən mühüm funksiyalarından biri milli maraqları həyata keçirməkdən ibarətdir. Milli dövlətin yaranmasında ən mühüm amili isə milli mənlik şüurudur.

Akademik R.Mehdiyevin fikrincə, Ümummilli Lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq ideyası dövlət, cəmiyyət maraqları və fərdin mənəvi maraqlarının vəhdəti kimi bütün azərbaycanlıları birləşdirən zəruri, güclü bir ideyadır: "Azərbaycançılıq ideyalarının dərk olunmasının əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, mədəni ənənələri zəminində birlik ideyası durur və bu, nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıların bir çox nəsillərinə xidmət edəcəkdir və müstəqillik, milli eyniyyət tezliklə həmin nəsillər üçün həyatı, azadlığı dərk etməyin ayrılmaz atributlarına çevriləcəkdir".

Ulu Öndər Heydər Əliyev azərbaycançılığı milli ideologiyanın əsası kimi Azərbaycan gerçəkliyində bərqərar olmasında və inkişafında müstəsna xidməti olan dövlət başçısıdır.

Şəxsi, fərdi, ictimai-milli və dövlət maraqlarının qarşılıqlı əlaqəsində şəxsi maraqlar cəmiyyət prizmasından keçir. Sovet dövründə ictimai maraqla dövlət marağı eyniləşdirilirdi. Əslində, ictimai maraqla cəmiyyət marağı eyni deyil. Sosial qrupun, ictimai birliyin, siyasi partiyanın, kollektivin marağı ictimai maraq kimi səciyyələndirilə bilər. Şəxsi və qrup maraqları da mövcuddur. Cəmiyyətin maraqları fərdi və ictimai maraqların nisbətini əhatə edir. Bu isə, artıq dövlət marağına da uyğun gəlir.

Dövlət maraqları cəmiyyətin, xalqın və millətin maraqlarını ifadə etdikdə bunları adekvat işlətmək mümkündür.

Azərbaycanda milli-dövlət maraqlarının gerçəkləşməsi prosesində "etnik-milli mənsubiyyətlə vətəndaşlıq, milli-dövlət mənsubiyyəti arasındakı fərqlər, bu fərqlərin fəlsəfi-etik və sosial-siyasi aspektlərdə dəyərləndirilməsi zərurəti" (S.Xəlilov) ön plana çəkilir.

Milli dövlət maraqları və insanların hüquqi statusu vəhdət təşkil etdikdə, onların hüquq və azadlıqları yüksək səviyyədə təmin olunur. Şəxsiyyətin hüquqi statusu dedikdə, onun hüquqi məsuliyyəti, dövlətin müəyyən etdiyi qanunlara riayət etməsi və cəmiyyətdə subyektin vəziyyətinin təsbit edilməsidir.

Şəxsiyyətin hüquqi statusunun nüvəsinə aşağıdakı komponentləri aid edirlər:

**1.** Hüquq və vəzifələr;
**2.** Qanuni maraqlar;
**3.** Hüquqi subyektivlik;
**4.** Vətəndaşlıq.

İnsan hüquqları universal, ümum-sosial anlayış olub şəxsiyyətin cəmiyyətdə dövlət tərəfindən təhlükəsizliyinin təmin olunması, şəxsiyyətin azadlığı sahəsində ümumbəşəri standartlar və tələblərin reallaşmasıdır.

İnsan hüquqlarına aşağıdakı əlamətlər xasdır:

**1.** Onlar insanın təbii və sosial mahiyyəti əsasında əmələ gəlir və inkişaf edir;
**2.** Dövlətin qəbul edib-etməməsindən asılı olmayaraq, obyektiv təşəkkül tapır;
**3.** İnsana anadan olduğu vaxtdan məxsus olur;
**4.** Təbii və ali sosial dəyər kimi qəbul olunur;
**5.** Dövlət və şəxsiyyətin qarşılıqlı münasibətlərinin prinsip və normalarını özündə əks etdirir;
**6.** İnsan hüquqlarının qəbul olunması, müdafiə olunması və ona riayət olunması dövlətin əsas vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində göstərilir: "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir".

Azərbaycanda insan hüquqlarının təmin olunması dövlət siyasətinin tərkib hissəsini təşkil edir.

Ümummilli Liderin insan hüquqlarının qorunması, vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf istiqamətində həyata keçirdiyi siyasət, Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməkdədir. Bunu çoxlu sayda imzalanan qərar və sərəncamlardan da aydın görmək mümkündür.

Prezident İlham Əliyevin 2006-cı il dekabrın 28-də Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsinə dair imzaladığı Sərəncam mühüm əhəmiyyətə malikdir. Sərəncamda Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Sərəncamda xüsusi vurğulanmışdır ki, hazırda Azərbaycanın yaşadığı yeni inkişaf mərhələsi insan hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl islahatların davam etdirilməsini şərtləndirir. Qarşıdan gələn illər üçün Azərbaycan Respublikasının normativ-hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, elmi-analitik işlərin stimullaşdırılması, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələr müəyyən edilir.

Respublikamızda gedən demokratikləşmə prosesi, ictimai həyatın bütün sahələrində aparılan uğurlu islahatlar, beynəlxalq miqyasda əldə olunmuş nailiyyətlər insan hüquqları kimi həssas və daim konseptual yanaşmaların müəyyən olunmasını tələb edən sahədə tənzimləyici milli mexanizmlərin daha da təkmilləşdirilməsini və ardıcıl tədbirlərin həyata keçirilməsini vacib edir. Bu baxımdan, dövlət başçısının 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın təsdiq edilməsi insan hüquqları sahəsində tədbirlərin davamlılığının təmin olunması məqsədini daşıyaraq, eyni zamanda, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hədəflərinə yönəlmişdir.

Azərbaycan Parlamentinin üzvü, hüquq elmləri doktoru, professor Aytən xanım Mustafazadə yazır: "Onu da qeyd edək ki, insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında və "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında nəzərdə tutulan istiqamətlər üzrə Azərbaycanda artıq bir sıra işlər görülmüşdür. Lakin ölkəmizdə insan hüquqlarının maksimum təminatına maneə yaradan problemlər mövcuddur. Bu maneələr beynəlxalq hüququn ümumi qəbul edilmiş prinsiplərinə bütün ölkələr tərəfindən əməl olunmaması, beynəlxalq qanunvericilikdə müəyyən boşluqların olması, yaxud da insan hüquqlarının obyektiv qanuni əsaslardan daha çox subyektiv siyasi məqsədlərə tabe edilməsinin nəticəsi kimi mövcud olan ikili standartlar vəziyyətinə münasibətdə dünya ictimaiyyətinin qəti mövqeyinin hələ də ortaya qoyulmamasının nəticəsidir. Məsələn, bu gün ərazi bütövlüyünün pozulması, etnik separatizmin və terrorizmin yalnız konkret dövlət əleyhinə deyil, bütün bəşəriyyət əleyhinə yönəldilmiş cinayətlər kimi təsbit edilməsi, dünyada hüquqları ən çox pozulan insanların - qaçqın və məcburi köçkünlərin status və problemlərinin həlli məsələsində açıq-aşkar boşluğun olması həqiqətdir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 17 iyun


## Ana südü ilə bəslənən oğlan uşaqları daha zəkalı olurlar



Avstraliyada on illik bir araşdırmaya görə ana südü ilə bəslənən oğlan uşaqları daha zəkalı olurlar. Aparılan araşdırmalar nəticəsində ilk altı ayında ana südü ilə bəslənən oğlan uşaqlarının riyaziyyat, qiraət və yazıçılıq sahəsində daha bacarıqlı olduqları ortaya çıxıb. Minədək körpə üzərində aparılan araşdırmalarda ana südünün uşağın beyninin formalaşmasına kömək etdiyi məlum olub.

## Başqasının göz yaşına toxunmaq bir sıra xəstəliklərin yayılmasına səbəb olur



Türkiyədə keçirilən oftalmoloqların elmi konfransında müasir dünyada göz xəstəliklərinin yayılmasının əsas səbəblərindən birinin mənbəyinin kompüter olduğu müəyyən edilib. Ofis şəraitində işləyən və kompüterdən mütəmadi şəkildə istifadə edənlərin demək olar ki, hamısında aktiv və passiv şəkildə göz iltihabı var və göz suyunun quruması müşahidə olunur. Bu, kompüter oyunlarının aludəsi olan uşaqlara da aiddir. AZƏRTAC xəbər verir ki, göz xəstəliklərini yayan maraqlı səbəblərdən biri başqasının göz yaşıdır. Başqasının göz yaşına toxunmaq ona aid olan bütün xəstəlikləri birbaşa özünə köçürməyə səbəb olur, çünki göz yaşı gözdəki bütün fəsadları özünə hopdurur və əksər hallarda xəstəliklərin ümumi nəticəsi kimi xaric olunur. Başqasının göz yaşına toxunandan sonra təsadüfən gözü ovuşdurmaq onda olan göz qızarması, ifrat göz sulanması və göz qapağının şişməsi kimi xəstəliklərin keçməsinə səbəb olur. Ona görə də kiminsə göz yaşını siləndən və ya təsadüfən toxunandan sonra əlləri sabunla yumaq lazımdır.

## Zədələnmiş dişlərin müalicəsində yeni üsul

London Stomatologiya İnstitutunun əməkdaşları pulpada gövdə hüceyrələrini təzələməyi və bu yolla dişlərin bərpa prosesini işə salmağı öyrəniblər. AZƏRTAC "AiF Zdorovye" qəzetinə istinadən xəbər verir ki, gövdə hüceyrələri dentin əmələ gəlməsi prosesini stimullaşdırır və dişləri kiçik zədələrdən qoruyur. Dentin orqanizmin özü tərəfindən istehsal olunur, amma böyük zədələrin öhdəsindən gələ bilmir. Ona görə də stomatoloqlar zədələnmiş dişi qorumaq üçün onu süni müdafiə ilə təmin etməyə, yeni plomb qoymağa məcbur olurlar.



Mütəxəssislər gövdə hüceyrələrinin əmələ gəlməsi prosesini fəallaşdırmaq üçün Alsheymer xəstəliyinin müalicəsində istifadə olunan dərman preparatından "GSK-3" fəal molekulunu əldə ediblər. Molekullar kollagen süngərlər vasitəsilə yerləşdirilir, bir müddətdən müstəqil sovrulur və dişlərin təbii şəkildə bərpasına səbəb olur.

## Nigar Arpadarai: "Bu il Bakıya gələcək xaricilərin sayı 2 dəfə çox olacaq"



"Formula-1 üzrə Azərbaycan Qran-Prisinin başlanmasına 1 həftə qalıb. Artıq trek və trek ətrafında hazırlıq işləri yekunlaşmaq üzrədir. Paddok binasında da son tamamlama işləri aparılır. Komandaların avadanlıqları buraya gətirilir". SİA-nın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin Marketinq və kommunikasiya departamentinin rəhbəri Nigar Arpadarai deyib. O qeyd edib ki, Paddok klubdakı yerlərə biletlər Formula-1 tərəfindən satılır: "Bu yerlərin biletləri korporativ şirkətlər tərəfindən və ya fərdi şəkildə alına bilər. Buradakı xidmətlər 3 ulduzlu otellərdə göstərilən xidmətlərlə eynidir". N.Arpadarai bildirib ki, yarışla bağlı bütün tikinti işləri yekunlaşmaq üzrədir: "Tribunalar tikilib qurtarıb. Tikinti işlərinin 95 faizdən çoxu tam yekunlaşıb. Gələn həftə son tamamlama işləri aparılacaq. Bu il tribunalarla yanaşı, bokslar da tikilib. Korporativ şirkətlərin nümayəndələri yarışa tribunalardan baxmaq istəməsələr, tribunaların yuxarı hissəsindəki bokslardan baxa bilərlər".

BŞH rəsmisi könüllülər və marşalların təlimlərinin də son mərhələdə olduğunu bildirib. O, keçən illə müqayisədə bu il Formula -1 yarışı ilə bağlı Bakıya gələcək xaricilərin sayının 2 dəfə çox olacağını vurğulayıb: "Dekabrdan bilet satışına start vermişik. İlk aylarda biletləri xarici vətəndaşlar intensiv şəkildə aldılar. İndi də xaricdən bilet alanlar çoxdur. Ancaq hazırki mərhələdə bilet alışında Azərbaycan və Rusiya vətəndaşları daha çoxluq təşkil edirlər. İki tribunaya biletlər tam satılıb, bir neçə tribunaya isə tam satılmaq üzrədir". N.Arpadarai xatırladıb ki, iyunun 19-dan BŞH ərazisində yollar nəqliyyatın hərəkəti üçün bağlanacaq və ayın 27-dək burada Formula -1 həftəsi olacaq.

## "Çelsi"də ciddi itki - Azar əməliyyat olunub



"Çelsi"nin yarımmüdafiəçisi Eden Azar əməliyyat olunub. Qol.az-ın Britaniya mətbuatına istinadən yaydığı xəbərə görə, bir neçə gün əvvəl məşq zamanı ayağı qırılan 26 yaşlı futbolçu dünən əməliyyat edilib. Belçika millisinin üzvü ən yaxşı halda oktyabrda meydana çıxa bilər. Bu isə komandanın aparıcı futbolçusunun mövsümün ilk 7 oyununu buraxması deməkdir. O, həmçinin Çempionlar Liqasının qrup mərhələsinin ilk 2 turunu da kənardan izləməli olacaq. Qeyd edək ki, Eden Azar ötən mövsüm London klubunun heyətində 43 oyunda 17 qol vurub.

## Həndbol millimiz ermənilərə qalib gəlib



Kişilərdən ibarət həndbol üzrə milli komandamız Bolqarıstanda keçirilən "Challenge Trophy"də növbəti görüşünə çıxıb. Qol.az-ın məlumatına görə, yığmamız 9-16-cı yerlər uğrunda ilk görüşündə Ermənistan millisi ilə qarşılaşıb. Həndbolçularımız rəqibi 39:21 hesabı ilə məğlub edib. Qeyd edək ki, qrup mərhələsində Andorranı məğlub edən (31:22) Azərbaycan millisi, Bolqarıstan (34:41) və Kipra uduzduğundan medallar uğrunda yarışmaq şansını itirib.

## "Monako"nun futbolçusu "Fənərbaxça"ya keçir

Transfer fəaliyyətini davam etdirən "Fənərbaxça" "Monako"nun daha bir futbolçusu ilə anlaşıb. Apasport.az saytı Türkiyə mətbuatına istinadən xəbər verir ki, "sarı-lacivərdlilər" Nabil Diranın ardınca Gil Diasla razılığa gəliblər. İstanbul klubu yarımmüdafiənin sol cinahındakı problemi məhz 20 yaşlı portuqaliyalı ilə aradan qaldırmağa qərar verib. Dias qarşıdakı 1 ili icarə əsasında "Fənərbaxça"da keçirəcək. "Kanarya" daha öncə Mehmet Ekici ve Matyu Valbuenanı da heyətinə qatmışdı. Qeyd edək ki, Gil Dias 2016-cı ildən icarə əsasında "Rio Ave" klubunda çıxış edib.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**